

UNITED NATIONS
AZERBAIJAN

# İllik Hesabat 2019

2016-2020 İLLƏR ÜÇÜN BİRLƏŞMİŞ MİLLƏTLƏR TƏŞKİLATI - AZƏRBAYCAN TƏRƏFDAŞLIQ ÇƏRÇİVƏSİ SƏNƏDİ

**Tərtibat**
Grid Cartels

Hesabatda istifadə olunan şəkillər BMT Azərbaycan arxivinə məxsusdur.

**Üz səhifədəki şəkil haqqında:**

BMT-nin Azərbaycandakı Ofisi BMT-nin tarixi, dəyərləri və məqsədləri, eləcə də BMT-nin ixtisaslaşmış təşkilatlarının Azərbaycanda gördüyü işlər barədə maarifləndirmə aparmaq məqsədilə, tez-tez məktəbliləri qəbul edir.

# MÜNDƏRİCAT

**ÖN SÖZ** 4

**ƏSAS NAİLİYYƏTLƏRİMİZ** 6

**BÖLMƏ 1: KONTEKST** 10

AZƏRBAYCANIN İNKİŞAF MƏNZƏRƏSİ 10

SİYASİ VƏ SÜLH MƏNZƏRƏSİ 12

**BÖLMƏ 2: ƏSAS NƏTİCƏLƏR** 14

2030-CU İL GÜNDƏLİYİNƏ DOĞRU 14

1- Cİ STRATEJİ PRİORİTET SAHƏ: ŞAXƏLƏNDİRMƏNİN ARTIRILMASINI VƏ LAYİQLİ ƏMƏYİ DƏSTƏKLƏYƏN DAYANIQLI VƏ İNKLÜZİV İQTİSADİ İNKİŞAFIN TƏŞVİQİ 16

2- Cİ STRATEJİ PRİORİTET SAHƏ: İNSTİTUSİONAL POTENSİALIN VƏ EFFEKTİV DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN GÜCLƏNDİRİLMƏSİ 20

3- CÜ STRATEJİ PRİORİTET SAHƏ: ƏTRAF MÜHİT SAHƏSİNDƏ İDARƏÇİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ TƏHLÜKƏ VƏ FƏLAKƏTLƏRƏ QARŞI DAYANIQLILIĞIN ARTIRILMASI 26

GƏNCLƏRİN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ 28

QADINLARIN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ 30

İNSAN HÜQUQLARI 31

**BÖLMƏ 3: ƏLAQƏLƏNDİRMƏ SAHƏSİNDƏ NƏTİCƏLƏR** 36

**BÖLMƏ 4: İRƏLİYƏ BAXIŞ** 42

**BÖLMƏ 5: TƏRƏFDAŞLAR VƏ MALİYYƏ İCMALI** 44

Tərəfdaşlar 44

Maliyyə icmalı 44

**XÜSUSİ NƏŞRLƏR** 46

# ÖN SÖZ



2016-2020-ci illər üçün BMT-Azərbaycan Tərəfdaşlıq Çərçivəsi (UNAPF) Sənədi əsasında BMT-nin Ölkə üzrə İdarə Heyəti (UNCT) tərəfindən 2019-cu ildə Azərbaycanda həyata keçirilmiş fəaliyyətlərə dair illik hesabatı təqdim etməkdən məmnunluq hissi duyuram.

Hesabat Azərbaycanın 2030-cu iləDək Dayanıqlı İnkişaf Məqsədlərinə (DİM-lər) nail olmaq üçün göstərdiyi səylərə verdiyimiz dəstəyi əks etdirir. Azərbaycan bu iddialı gündəliyə nail olmaq üçün sosial-iqtisadi və iqlim dəyişikliyi ilə mübarizə sahələrində bir sıra dövlət siyasətlərini həyata keçirir. Hesabatda UNCT-nin 2019-cu ildə Azərbaycanın insan kapitalı və institusional bacarıqlarının artırılması ilə nəticələnən siyasət, strategiya və tədbirlərə verdiyi töhfələrə dair konkret nümunələr təqdim edilir. Bizim fəaliyyətlərimiz Hökuməti, vətəndaş cəmiyyətini və özəl sektoru təmsil edən tərəfdaşlarımızla yaxından əməkdaşlıq şəraitində həyata keçirilib. Biz, həmçinin, tərəfdaşımız olan inkişaf təşkilatları ilə müxtəlif formalarda əməkdaşlıq edərək Azərbaycan əhalisinin, xüsusilə əhalinin ən həssas qruplarının dayanıqlı inkişafın faydalarından bəhrələnməsi üçün yeni imkanlar yaratdıq.

Hesabatın ərsəyə gəlməsi Azərbaycanın beynəlxalq sülh və inkişafın qorunmasında oynadığı rolun getdikcə daha çox əhəmiyyət qazandığı bir vaxta təsadüf edir. 2019-cu ildə Bakı şəhərində bir sıra yüksək səviyyəli BMT tədbirləri, o cümlədən UNESCO-nun Ümumdünya İrs Komitəsinin 43-cü sessiyası, BMT-nin Dövlət Xidmətləri Forumu, V Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumu və Ümumdünya Turizm Təşkilatının İcraiyyə Şurasının 110-cu sessiyası keçirilib. Ölkə, həmçinin, BMT-nin Baş Assambleyasının Prezidenti, BMT-nin Baş katibinin iqtisadi və sosial məsələlər üzrə və siyasi və sülh quruculuğu məsələləri üzrə müavinləri, BMT-nin Sivilizasiyalar Alyansı üzrə Ali Nümayəndəsi kimi bir sıra fəxri qonaqları qəbul edib. Bunlar BMT sistemi ilə Azərbaycan arasında qlobal həmrəylik və çoxtərəfli fəaliyyətin təşviqi sahəsində yüksək səviyyəli əməkdaşlığın göstəricisidir.

Son dövrlərdə dünyada çoxtərəfliliyə qarşı yönələn və milli maraq və kimliklərin müdafiəsi ilə bağlı bir sıra iddialar bu beynəlxalq dəyərləri təhlükə altına salmaqdadır. Bununla belə, COVİD-19 pandemiyasına qarşı qlobal fəaliyyət göstərdi ki, təcridçilik dövlətləri qorumaq əvəzinə, onların təməlini sarsıdır. UNCT olaraq, biz qürur hissi duyuruq ki, bu böhranın birbaşa təsirlərini aradan qaldırmaq üçün Hökumətlə çox erkən mərhələdə əməkdaşlığa başladıq. Biz bu dəstəyi beynəlxalq təcrübənin bölüşülməsi, təşviqat və texniki dəstək vasitəsi ilə göstərdik. Biz vacib tibbi materialların satın alınmasını, profilaktik mesajların yayılmasını və milli tərəfdaşlarımız üçün ən yaxşı texniki məsləhətlərin təqdim edilməsini təmin etdik. COVİD-19 pandemiyasının səbəb olduğu sarsıntıya baxmayaraq, ölkənin 2030-cu il Gündəliyinə nailolma istiqamətində planauyğun surətdə irəliləməsini təmin etmək üçün qarşıdakı illərdə Hökumət və Azərbaycan xalqı ilə işləməyə davam edəcəyik.

Sizi 2019-cu ildə həyata keçirdiyimiz bütün tədbirlər və əldə olunan nailiyyətlərlə tanış olmağa dəvət edir, Azərbaycan Hökumətinə, inkişaf tərəfdaşlarımıza, eləcə də nəticələrin əldə olunmasında vacib rol oynamış heyətimizə və mütəxəssislərimizə səmimi minnətdarlığımı bildirirəm.

***Qulam İshaqzai***
Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı
Rezident Əlaqələndiricisi

# ƏSAS NAİLİYYƏTLƏRİMİZ

**DİM-lər üzrə Milli Məlumatlandırma Portalı istifadəyə verildi.** Portal DİM-lərlə bağlı irəliləyişi real vaxt rejimində izləyən və monitorinqini aparan interaktiv göstəricilər paneli təqdim edir (BMTİP)

**"Azərbaycan Respublikası Əhalisinin Dövlət Reyestri haqqında" qanuna dəyişikliklər** Milli Məclis tərəfindən qəbul edildi və Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edildi.

Bu, "Qaçqınların statusu haqqında" Konvensiyaya uyğun olaraq qaçqın statusu almış şəxslərin ölkədə məskunlaşmasını rəsmi şəkildə qeydiyyata almağa imkan verməklə, onların qanuni əmək fəaliyyətinə və digər sosial xidmətlərə çıxışını təmin edir (BMTQAK)

**Ölkənin ilk Data Mərkəzi (məlumatların saxlanması üçün təsisat) yaradıldı** və nəticədə Azərbaycan Data Mərkəzinə malik dördüncü keçmiş Sovet ölkəsinə çevrildi. Yevlax rayonunda yerləşən bu təsisat, ölkənin ən ucqar hissələrinin də İKT ilə əhatə olunmasına imkan verir və telekommunikasiya operatorları, kommersiya müəssisələri və İT şirkətləri üçün informasiya təhlükəsizliyini yaxşılaşdırır (BMTİP)

**Azərbaycanda ilk dəfə İnklüzivlik Hakatonu keçirildi.** Hakatonda 16 komanda 48 saat dayanmadan çalışaraq əlilliyi olan şəxslərin üzləşdiyi çətinlikləri aradan qaldırmaq üçün geniş spektrli prototiplər və açıq mənbəli həll yolları (tətbiqi proqramlar, vebsaytlar, elektron məhsullar) hazırladılar (BMTİP)

**Dayanıqlı Enerji üzrə Milli Fəaliyyət Planı hazırlandı.** Planda münasib və dayanıqlı siyasət çərçivələrinin hazırlanması yolu ilə enerji səmərəliliyinin artırılması və enerjidən istifadənin ətraf mühitə mənfi təsirinin azaldılması ilə bağlı təhlil və tövsiyələr təqdim olunur (UNECE)

**İlkin səhiyyə xidməti üçün gələcəyə baxış sənədi hazırlandı.** Sənədin məqsədi Azərbaycan üçün ən yaxşı ilkin səhiyyə xidməti modelinin yaradılmasıdır (ÜST)

**Gender əsaslı cinsi seçimin qarşısının alınması və aradan qaldırılması üzrə Milli Fəaliyyət Planı hazırlandı.** Bu sənəd təsdiqləndikdən sonra, Azərbaycanda gender əsaslı cinsi seçimin azaldılmasına yönələn səmərəli müdaxilə strategiyaları üçün müfəssəl yol xəritəsi kimi çıxış edəcək (UNFPA)

**"Antimikrob preparatlara davamlılığa qarşı mübarizə üzrə Milli Fəaliyyət Planı"** hazırlandı. Bu plan, antimikrob preparatlara davamlılığın qarşısının alınması və onunla mübarizə üçün səhiyyə və epidemioloji nəzarət sistemlərinin gücləndirilməsində Hökumətə istiqamət verir (ÜST)

**Azərbaycan yeni onillik "Milli Meşə Proqramı"nı qəbul etdi.** Bu sənəd meşə resurslarının dayanıqlı şəkildə idarə olunmasını və səmərəli istifadəsini, meşə ehtiyatlarının və biomüxtəlifiyin qorunmasını, habelə iqlim dəyişikliyinə uyğunlaşmanı təmin edir (FAO, UNECE)

Məişət zorakılığından zərər çəkmiş şəxsləri ödənişsiz hüquqi yardımla təmin etmək, qaçqın və sığınacaq axtaran şəxslərə ödənişsiz hüquqi xidmətlər göstərmək üçün **Vəkillər Kollegiyası ilə müqavilə bağlanıldı** (BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi, BMTQAK)

**Azərbaycanda bir doğum evi** ilk dəfə olaraq ana südü ilə qidalandırmanı və körpələrin sağlamlığı və qidalanması ilə bağlı digər təcrübələri təbliğ edən **beynəlxalq "Körpə dostu xəstəxana" standartlarını qəbul etdi.** (UNİCEF)

# ƏSAS NAİLİYYƏTLƏRİMİZ

**3000-ə**

yaxın şəxs ödənişsiz hüquqi xidmətlərdən faydalandı (BMTİP, BMT İHAK, BMqT)

**14000-ə**

yaxın xəstə (Hepatit C, dərmana həssas vərəm və İİV (İnsanda İmmunçatışmazlığı Virusu) xəstələri) yüksək keyfiyyətli dərman preparatlarına çıxış əldə etdi (BMTİP)

**2,400**

məcburi köçkün, qaçqın və sığınacaq axtaran şəxs ödənişsiz görmə müayinəsindən keçdi, eynək və digər görmə və eşitmə cihazları ilə təmin edildi (BMTQAK)

**Altı rayonda 12-24 yaşlı**

**3600-dən**

çox gənc Hökumət və BMT-nin müştərək Gənclər Evləri Təşəbbüsü çərçivəsində əsas həyat bacarıqları, reproduktiv sağlamlıq və gender bərabərliyi proqramlarından, hüquqi və psixoloji yardımdan faydalandı (UNİCEF, BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu, UNFPA, BMT-nin Könüllülər Proqramı və BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası)

**30 rayonda**

**500-ə**

yaxın tibb mütəxəssisi kritik doğuş vəziyyətləri, uşaqlıq boynu xərçəngi və ailə planlaşdırması kimi sahələrdə zəruri bilik və bacarıqlara yiyələndi (UNFPA)

**100-dən**

artıq ailə (66-sı qadın ailə başçısı) öz kiçik ailə bizneslərini qurdu və genişləndirdi (BMTİP, BMqT, FAO)

**78**

rayon məşğulluq mərkəzi kiçik sahibkarların öz bizneslərini qurması və böyütməsinə kömək etmək məqsədilə, dünyada biznes idarəetməsi üzrə ən yayğın təlim proqramlarından olan BƏT-in "Öz biznesinə başla və inkişaf etdir" (SYİB) metodologiyasını tətbiq etməyə başladı.

**Ölkə boyunca**
**60**

dövlət və özəl informasiya-məsləhət xidmətləri fermerləri keyfiyyətli texniki məsləhətlə təmin etməyə başladı (FAO)

Vətəndaş cəmiyyətinin nümayəndələri və hüquq ictimaiyyətinin üzvləri BMT-nin müqavilə orqanlarına və hüquq komitələrinə

**9**

birgə alternativ hesabat və birgə məlumatlar təqdim etdi. İqtisadi, Sosial və Mədəni Hüquqlar, Uşaq Hüquqları, Qadınlara Qarşı Ayrı-seçkiliyin Aradan Qaldırılması, Əlilliyi Olan Şəxslərin Hüquqları və İşgəncələr Əleyhinə komitələr də bu siyahıya aiddir (BMT İHAK)

**7 rayonda**
**5000-dən**

artıq ibtidai sinif müəllimi əlilliyi olan uşaqları inklüziv təhsilə cəlb etmək üçün tədris standartları üzrə hazırlıq keçdi (UNICEF)

3-4 yaşlı uşaqlar üçün icma əsaslı

**320**

erkən təlim mərkəzi 32 rayonda 6000-dən artıq uşağa xidmət etməyə başladı (UNICEF)

Əvvəllər hər il atmosferə buraxılan təqribən

**7 milyon**

kub metr həcmində qaz bu ildən yığılmağa və 15 kənddə yaşayan və daha əvvəl evlərini qızdırmaq və yemək bişirmək üçün odundan istifadə edən təqribən 600 ailəyə paylanılmağa başlandı (BMTİP, Dövlət Neft Şirkəti)




17 yerli rəssam DİM-ləri təbliğ etmək məqsədi ilə hər bir məqsədi istifadə olunmuş neft çəlləkləri üzərində vizual incəsənət vasitəsilə şərh edib.

BÖLMƏ 1

# KONTEKST

## Azərbaycanın inkişaf mənzərəsi

Yuxarı-orta gəlirli ölkələr qrupuna daxil olan Azərbaycanda adambaşına düşən ÜDM 4722 ABŞ dollarıdır. Stabil neft hasilatı və daxili tələbatın bir qədər artması ilə bağlı olaraq, 2019-cu ildə ÜDM 2.2 faiz artmış[1], qeyri-neft sektorunda 3.5% artım müşahidə olunmuşdur. Bu əksər iqtisadi sahələrdə də dinamizmin artdığına işarə edir. Vergi Məcəlləsinə edilən müsbət dəyişikliklər (Prezidentin 20 dekabr 2018-ci il tarixli fərmanı) sahibkarlığın inkişaf etdirilməsinə, vergidən yayınmanın və kölgə iqtisadiyyatının aradan qaldırılmasına, vergitutma bazasının genişləndirilməsinə, vergi inzibatçılığının təkmilləşdirilməsinə və vergitutmanın səmərəliliyinin artırılmasına yönəlib. Azərbaycan Dünya Bankının 2020-ci il üzrə "Doing Business" hesabatında[2] kreditin əlçatanlığı sahəsində ən yüksək nəticələri

1. İqtisadiyyat Nazirliyi
2. Dünya Bankının 2020-ci il "Doing Business" hesabatı

## **ADAMBAŞINA DÜŞƏN ÜDM-İN 4722 ABŞ DOLLARINA BƏRABƏR OLDUĞU** AZƏRBAYCAN YUXARI-ORTA GƏLİRLİ ÖLKƏLƏR QRUPUNA DAXİLDİR

əldə edib. 2019-cu ildə Trans-Anadolu Təbii Qaz Boru Kəmərinin (TANAP) Avropa qolunun istifadəyə verilməsi Azərbaycan qazının Avropaya çatdırılması istiqamətində daha bir önəmli addım olmuşdur. Bundan əlavə, Hökümət regionların sosial-iqtisadi inkişafına dair dördüncü Dövlət Proqramının icrasına başlamış və aqrar sahədə də islahatları davam etdirmişdir, Bunlara, ərzaq təhlükəsizliyinin təmin edilməsinə dair Dövlət Proqramının icrasına başlanması, fermerlərin "bir pəncərə" prinsipi əsasında xidmətlərlə təmin edilməsi üçün Aqrar Xidmətlər Agentliyi yaradılması, Elektron Kənd Təsərrüfatı İnformasiya Sisteminin (EKTİS) istifadəyə verilməsi və fermerlərin vahid məlumatlar bazasının yaradılması aiddir. Azərbaycan həmçinin Türkiyə modeli əsasında aqrar sığorta mexanizmini də tətbiq etməyə başlayıb.

Sosial müdafiə 2019-cu ildə Hökumətin əsas prioritetlərindən biri olmuşdur. İl ərzində 4.2 milyon nəfər üçün əmək haqları və sosial müavinətlərin artırılması buna bariz nümunədir. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi minimum əmək haqqının iki dəfə artırılmasını və ölkədəki 660 min təqaüdçü üçün minimum pensiyanın 72% artırılmasını nəzərdə tutan sərəncamın imzalanmasını təmin etmişdir. Hökumət 2015-ci ildə baş verən devalvasiyadan zərər çəkmiş təqribən 900 min nəfərin kredit ödənişlərinə də kömək edib.

2019-cu ilin büdcəsində təhsil və səhiyyə sahələrinə ayırmaların nəzərəçarpan dərəcədə (müvafiq olaraq 13% və 44.5%) artması insan kapitalına qoyulan investisiya baxımından mühüm əhəmiyyət kəsb edir. Bu il həmçinin, ali təhsil sisteminin beynəlxalq rəqabətliliyinin artırılmasına dair yeni dövlət proqramının da icrasına başlanılıb. Bundan əlavə, 2030-cu ilədək Azərbaycanda işsizlik səviyyəsini 4 faizə endirmək, habelə qadınlar və gənclər arasında işsizlik səviyyəsini minimuma endirmək üçün Hökumət yeni məşğulluq proqramı hazırlayıb. Uşaqlara və gənclərə qarşı bulling və zorakılıqla mübarizə aparmaq üçün əlavə tədbirlər görülüb. Bununla belə, orta müddətli perspektivli büdcə tərtibatı və dövlət vəsaitlərinin idarə olunması sistemi vasitəsilə, büdcə xərcləmələrini inkişaf ehtiyacları ilə uzlaşdırmaq üçün əlavə səylərə ehtiyac var.

2019-cu ildə ədliyyə sistemini gücləndirmək üçün məhkəmə-hüquq sistemində də əhəmiyyətli islahatlar aparılıb. «Mediasiya haqqında» Azərbaycan Respublikasının Qanunu qüvvəyə mindikdən sonra, yeni mediasiya qaydaları qəbul edilib və elektron məhkəmə sistemi təkmilləşdirilib. Bununla yanaşı, ədliyyə sisteminin inkişafına dair yeni dövlət proqramı və dövlət qulluğunun inkişafına dair strategiya qəbul edilib. İnsan İnkişafı İndeksi (HDİ)[3] 0.754 olan Azərbaycan yüksək insan inkişafına malik ölkə kimi təsnifləşdirilir. Ölkə qiymətləndirilmiş 189 ölkə arasında 87-ci yerdə olsa da, gəlir və gender bərabərliyi, habelə qadınların səlahiyyətlərinin artırılması baxımından bərabərsizliyin artdığı da nəzərə çarpır.

3. İnsan İnkişafı Hesabatı 2019



## ÖLKƏ OKTYABRIN **25-26-DA KEÇİRİLMİŞ QOŞULMAMA HƏRƏKATININ XVIII ZİRVƏ GÖRÜŞÜ, UNESCO-NUN ÜMUMDÜNYA İRS KOMİTƏSİNİN 43-CÜ SESSİYASI,** BMT-NİN DÖVLƏT XİDMƏTLƏRİ FORUMU VƏ V ÜMUMDÜNYA MƏDƏNİYYƏTLƏRARASI DİALOQ FORUMU KİMİ YÜKSƏK SƏVİYYƏLİ BEYNƏLXALQ TƏDBİRLƏRƏ EV SAHİBLİYİ EDİB

Ətraf mühitə təsirlərə gəldikdə, ölkədə ümumi enerji istehlakının 98.4 faizi təbii yanacaqlardan əldə olunur. Ümumi son enerji istehlakında bərpa olunan enerji mənbələrinin payı cəmi 2.3 faizdir, Avropa və Mərkəzi Asiyada isə orta göstərici bundan iki dəfə yüksəkdir. Karbon dioksid emissiyası daha kiçik olsa da, 2010-cu ildən bəri artması müşahidə olunur. 2019-cu ilin mayında Azərbaycan meşə landşaftının bərpasını nəzərdə tutan beynəlxalq Bonn Çağırışına qoşulub və 2030-cu ilədək 170000 hektar meşə ərazisini bərpa etməyi öhdəsinə götürüb[4]. Bu öhdəlik ölkənin meşələri dayanıqlı şəkildə idarə etmək məqsədilə göstərdiyi səylərin ictimailəşdirilməsini artırıb. Ölkənin yeni meşə proqramının da əsas hədəfi eynidir.

## Siyasi və sülh mənzərəsi

Son illərdə Azərbaycan davamlı siyasi sabitlik və təhlükəsizliyin təminatında yüksək uğurlar nümayiş etdirməklə,dövlətin "dayanıqlılığı", təhlükəsizlik vəziyyəti, habelə dövlət qurumlarının gücü kimi qlobal göstəricilərdə (Dayanıqlı Olmayan Dövlətlər İndeksi, 2019; Qlobal Sülh İndeksi, 2019) əhəmiyyətli irəliləyişlərə nail olub. 2019-cu ilin əvvəllərindən başlayaraq, Prezident İlham Əliyev müstəqilliyin bərpa edildiyi dövrdən fəaliyyət göstərən dövlət məmurlarının əvəz edilməsi, bəzi qurumların birləşdirilməsi və ya ləğv edilməsi, habelə yeni qurumların yaradılması ilə bağlı önəmli dəyişikliklər həyata keçirib. Buraya yeni Baş Nazirin təyin edilməsi, habelə təhsil, vergi islahatları, kənd təsərrüfatı və kənd ərazilərinin inkişafı, ətraf mühit və energetika sahələrinə məsul bir sıra əsas nazirlərin təyin edilməsi daxildir. Yeni Hökumətin qarşısında iqtisadi artıma təkan vermək məqsədilə əsas sektorlarda islahatların davam etdirilməsi tapşırığı qoyulub. Nazir vəzifəsinə heç bir qadın təyin edilməsə də, qadın namizədlər və gənclərin nümayəndələri 23 dekabr 2019-cu il tarixində keçirilən bələdiyyə seçkilərində fəal iştirak edib.

2019-cu ilin sonlarında hakim partiya Prezidentin islahat proqramının icrası və Azərbaycanın qanunverici hakimiyyətinin müasirləşdirilməsi məqsədilə parlamentin buraxılması təşəbbüsü ilə çıxış edərək, Azərbaycan Respublikasının Prezidentinə müraciət etdi. Nəticədə, Prezident 9 fevral 2020-ci il tarixində növbədənkənar parlament seçkilərinin keçirilməsi ilə bağlı sərəncam imzaladı.

Ölkə BMT-nin insan hüquqları üzrə müxtəlif müqavilə orqanları üçün dövri hesabatların hazırlanmasında və təqdim olunmasında bu il

4. Maliyyə təmin edildiyi təqdirdə əlavə 100.000 ha nəzərdə tutulub



BMT-nin Baş Assambleyasının Prezidenti Ticcani Muhammed-Bande Bakı şəhərində
“BMT Günü”nə həsr olunmuş tədbirdə tələbələrlə görüşüb.

də fəallıq nümayiş etdirib. Hökumət 2018-ci ildə Universal Dövri İcmal (UDİ) çərçivəsində üçüncü dövri baxışda təqdim olunan 259 tövsiyədən 179-nu icra üçün, 66-nı nəzərdən keçirmək üçün qəbul edib. 2019-cu ilin iyul ayında Xarici İşlər Nazirliyi UDİ tövsiyələrinin icrasının izlənməsi və hesabatvermə üzrə milli mexanizmin yaradıldığını elan edərək müxtəlif nazirlikləri, dövlət qurumlarını və ictimai təşkilatların nümayəndələrini bir araya gətirib.

Eyni zamanda, BMT-nin müqavilə orqanları və xüsusi prosedurlarının son hesabatları ifadə, birləşmə və toplaşma azadlığı, məhkəmə sisteminin müstəqilliyi, cinayət və inzibati təqib və mədəniyyət hüquqları kimi sahələrdə çatışmazlıqların olduğunu vurğulayır. Vətəndaş cəmiyyətində müşahidə olunan irəliləyişlərə Beynəlxalq Qadınlar Günü münasibətilə təşkil olunmuş məişət zorakılığına etiraz yürüşlərini nümunə gətirmək olar.

Ölkə 2019-cu ildə yüksək səviyyəli beynəlxalq tədbirlərə ev sahibliyi etməyə davam edib. Bu tədbirlərdə yüksək səviyyəli BMT rəsmiləri iştirak edib. Baş Assambleyanın 74-cü sessiyasının prezidenti və BMT-nin Baş katibinin siyasi və sülh quruculuğu məsələləri üzrə müavini 25-26 oktyabr tarixlərində Bakı şəhərində keçirilən Qoşulmama Hərəkatının Dövlət və Hökumət Başçılarının XVIII Zirvə Görüşündə iştirak edib.

2019-cu ilin birinci yarısında Minsk qrupunun həmsədrlərinin himayəçiliyi altında Dağlıq Qarabağ münaqişəsi üzrə aparılan danışıqlar müsbət impuls yaradıb. Belə ki, bir neçə yüksək səviyyəli dialoq yeni təhlükəsizlik tədbirləri, təmas xətti boyunca gərginliyin əhəmiyyətli dərəcədə azalması, habelə “xalqların sülhə hazırlanması” öhdəliyinin götürülməsi ilə nəticələnib. Bununla belə, əsas məsələlərdə irəliləyiş durğun olaraq qalır.

2019-cu ilin may ayında Azərbaycan meşə landşaftının bərpasını nəzərdə tutan beynəlxalq Bonn Çağırışına qoşulub və 2030-cu ilədək **170.000** hektar meşə ərazisini bərpa etməyi öhdəsinə götürüb



BMTİP-in Azərbaycandakı Nümayəndəliyi tərəfindən təşkil olunmuş, intensiv və fasiləsiz 48 saatlıq ilk İnklüzivlik Hakatonu əlilliyi olan şəxslər üçün əngəlləri aradan qaldırmaq və keyfiyyətli yaşam imkanları təmin etmək üçün yeni texnoloji həllər təqdim edib.

BÖLMƏ 2

# ƏSAS NƏTİCƏLƏR

## 2030-cu il gündəliyinə doğru

2019-cu ildə Azərbaycandakı BMT qurumları DİM-lərin icrası üçün dövlət qurumlarının bacarıqlarının artırılması və bu qurumların səmərəliliyini, şəffaflığını, hesabatlılığını və inklüzivliyini təmin etmək üçün texniki dəstək göstərməyə və siyasət məsləhətləri verməyə davam edib.

## Məlumatların mövcüdluğu, monitorinq və hesabatvermə

- Azərbaycan Hökuməti DİM-lər üzrə **ikinci Könüllü Milli Hesabatını** hazırlayıb və 2019-cu ilin iyul ayında Nyu-Yorkda keçirilən Yüksək Səviyyəli Siyasi Forumda (HLPF) təqdim edib. Hesabat BMTİP-in maliyyə və texniki dəstəyi, BMT-nin digər təşkilatlarının töhfələri və özəl sektor və gənclər təşkilatları ilə yaxından məsləhətləşmə şəraitində hazırlanıb.
- BMTİP ilə əməkdaşlığın daha bir nəticəsi isə **DİM-lər üzrə Milli Məlumatlandırma Portalının** istifadəyə verilməsi olub. Portalda təyin olunmuş bir sıra dövlət qurumlarından

məlumatları qəbul edən və DİM-lərlə bağlı irəliləyişi real vaxt rejimində izləyən və monitorinqini aparan interaktiv alətlər paneli mövcuddur.

- “2018–2025-ci illərdə Azərbaycan Respublikasında rəsmi statistikanın inkişafına dair Dövlət Proqramı” na uyğun olaraq, BMT qurumları Dövlət Statistika Komitəsinə **keyfiyyətli məlumatlar** istehsal etmək sahəsində dəstək göstərib. Buna, FAO-nun qida ilə bağlı DİM göstəriciləri üzrə, UNİCEF-in uşaq məlumatları üzrə və UNFPA-nın **cins üzrə dezaqreqasiya olunmuş göstəricilərin**[5] hazırlanması və milli statistik məlumatlar bazasına inteqrasiyası üzrə metodoloji dəstəyi aiddir. Bundan əlavə, UNİCEF Dövlət Statistika Komitəsinin əməkdaşları üçün ADA Universitetində ilk **ixtisaslaşdırılmış statistik təhlil kursunu** təşkil edib.

## DİM-lər üçün tərəfdaşlıqların qurulması

Biznes sektorunun inkişaf və DİM-lər üçün transformativ potensialından yararlanmaq üçün üç əlamətdar tədbir təşkil olunub:

- BMTİP, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası (DİMƏŞ) və İqtisadiyyat Nazirliyi tərəfindən ilk **DİM-lər üzrə Dövlət-Özəl Sektor Dialoqu** keçirilib. Hökumətin, kommersiya müəssisələrinin və beynəlxalq təşkilatların 100-dən artıq nümayəndəsini bir araya gətirən bu platforma Azərbaycanın DİM-lər üzrə Dövlət-Özəl Sektor Əməkdaşlığı və Tərəfdaşlığı üzrə ilk Yol Xəritəsi və ya Fəaliyyət Planının hazırlanması istiqamətində müzakirəyə yol açıb.
- BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi, UNİCEF, BMT-nin “Qlobal Saziş” Təşəbbüsü, BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu və BMTİP tərəfindən birgə təşkil olunmuş **“Məsuliyyətli




Biznes” mövzusunda birgə konfransda** şirkət rəhbərləri **“Qlobal Saziş”in prinsiplərini** və DİM-lərin öz fəaliyyətlərinə inteqrə edilməsini müzakirə edib.
- UNDESA-nın təşəbbüsü ilə, **“DİM-lərə doğru Bir Kəmər, Bir Yol un birgə qurulması üçün milli siyasət bacarıqlarının artırılması”** mövzusunda **ilk yerli seminar** keçirilib. Seminar siyasət tədqiqatları və alətlərinə olan ehtiyacları qarşılamaq, “Bir Kəmər, Bir Yol Təşəbbüsü”nə investisiyanın DİM-lərin icrasına müsbət təsirlərini maksimuma çatdırmaq istiqamətində təcrübələri bölüşməyə imkan verib.
- DİM-lərin daha yaxşı başa düşülməsi və dövlət və özəl sektorun DİM-lərin icrasına töhfəsinin artırılması məqsədilə, BMT-nin ixtisaslaşmış təşkilatları tərəfindən silsilə tədbirlər və seminarlar keçirilib. Buna BƏT tərəfindən keçirilən Azərbaycanda layiqli əmək, sosial müdafiə və dayanıqlı müəssisələr və FAO tərəfindən keçirilən ərzaq, kənd təsərrüfatı, balıqçılıq təsərrüfatları və meşəçilik üzrə tədbirlər və seminarlar aiddir.

5. 2019-cu ildə cins üzrə dezaqreqasiya olunmuş 18 yeni göstərici

## 1-Cİ STRATEJİ PRİORİTET SAHƏ:

# ŞAXƏLƏNDİRMƏNİN ARTIRILMASINI VƏ LAYİQLİ ƏMƏYİ DƏSTƏKLƏYƏN DAYANIQLI VƏ İNKLÜZİV İQTİSADİ İNKİŞAFIN TƏŞVİQİ




Yerli bacarıqları əmək bazarının tələblərinə uyğunlaşdırmaq, təhsil və məşğulluğu əlaqələndirmək məqsədilə, BMTİP Avropa İttifaqının Nümayəndəliyi, Təhsil Nazirliyi və Peşə Təhsili üzrə Dövlət Agentliyi ilə əməkdaşlıq edərək ölkənin iki böyük şəhərində - Gəncə və Lənkəranda peşə təhsilinin fiziki infrastrukturunu, texniki bünövrəsini, təlim və əməliyyat imkanlarını gücləndirib.

Lənkəran və Gəncə şəhərlərində yerləşən iki peşə təhsili mərkəzində yeni təmir olunmuş və avadanlıqlarla tam təchiz olunmuş emalatxanalarda cari bazarın tələbatına uyğun olaraq **12** yeni peşə üzrə təhsil təklif edilir

Azərbaycandakı BMT sistemi qadınların və həssas icmaların iqtisadi səlahiyyətlərinin artırılmasına xüsusi diqqət yetirməklə, qeyri-neft sektorunda məşğulluq imkanlarının genişləndirilməsi, bacarıqların inkişaf etdirilməsi və işçi qüvvəsinin təhsilinin gücləndirilməsində Hökumətə dəstək göstərmişdir.

### Bacarıqların tələblə uzlaşdırılması

- Lənkəran və Gəncə şəhərlərində yerləşən iki peşə təhsili mərkəzində yeni təmir olunmuş və avadanlıqlarla tam təchiz olunmuş emalatxanalarda cari bazarın tələblərinə uyğun olaraq **12 yeni peşə üzrə kurrikulum tətbiq olunmağa başlayıb**. Bu, həmçinin xüsusilə ölkənin cənub regionlarında güclü olan gender əsaslı maneələrin aradan qaldırılmasına kömək edir. Belə ki, **Cəlilabadda ilk dəfə olaraq, 21 gənc qadın peşə təhsili proqramlarına yazılıb.** Bundan əlavə, Dövlət Turizm Universitetində yeni tədris metodologiyaları, e-universitet və keyfiyyətli idarəetmə sistemləri təqdim olunub və BMT-nin Ümumdünya Turizm Təşkilatının TedQual auditi üçün özünüqiy-mətləndirmə

hesabatı hazırlanıb. **TedQual** - Ümumdünya Turizm Təşkilatı tərəfindən ali turizm təhsili, təlimi və elm-tədqiqat proqramları üçün verilən özünəməxsus və yeganə beynəlxalq keyfiyyət sertifikatıdır.

- **20 rayonda 700 gəncin** karyera inkişafı (BMTİP), peşə (BMqT) və biznes quruculuğu (FAO, BƏT) üzrə bacarıqları artırılıb.
- Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası (ASK) BƏT-in biznesin idarə edilməsi üzrə uğurlu **"Öz biznesinə başla və inkişaf etdir" (SYİB)** təlim proqramını qəbul edib və bu proqram üzrə təlimləri Azərbaycanda öz üzvləri üçün yeni xidmət kimi genişləndirməyi planlaşdırır. **78 rayon məşğulluq mərkəzinin** hər birində özünüməşğulluq proqramı üzrə bölmə yaradılıb və əməkdaşları BƏT-in SYİB metodologiyası üzrə təlimdən keçib.

AZƏRBAYCAN RESPUBLIKASI SAHİBKARLAR (İŞƏGÖTÜRƏNLƏR) TƏŞKİLATLARI MİLLİ KONFEDERASİYASI (ASK) BƏT-İN BİZNESİN İDARƏ EDİLMƏSİ ÜZRƏ UĞURLU **"ÖZ BİZNESİNƏ BAŞLA VƏ İNKİŞAF ETDİR" (SYİB)** TƏLİM PROQRAMINI QƏBUL EDİB VƏ ONU AZƏRBAYCANDA ÖZ ÜZVLƏRİ ÜÇÜN YENİ XİDMƏT KİMİ GENİŞLƏNDİRMƏYİ PLANLAŞDIRIR

## Kənd yerlərində mikro, kiçik və orta ölçülü müəssisələrin (MKOM-lar) genişləndirilməsi

- BMT təşkilatlarının (BMTİP, BMqT və FAO) həyata keçirdiyi yerli biznes təşəbbüsləri nəticəsində 100-ə yaxın ailə (66-sı qadın ailə başçısı olmaqla) öz **kiçik ailə bizneslərini** yaradıb və genişləndirib. **Uğur hekayələrindən bəziləri ilə burada tanış olun.**

Bura basın




- FAO və Kənd Təsərrüfatı Nazirliyinin Aqrar Kredit və İnkişaf Agentliyi tərəfindən birgə icra edilən **Aqrar Məşğulluğun Artırılması Layihəsi (AMAL)** çərçivəsində kənd yerlərində yaşayan 1000-dən çox gənc məhsuldarlığı artıran və ekoloji baxımdan təhlükəsiz yeni kənd təsərrüfatı modelləri üzrə təlimlərdən yararlanıb.
- Eyni zamanda, kənd əraziləri üçün gender aspektlərini nəzərə alan məsləhət xidmətlərini gücləndirmək, qadınların öz fəaliyyətlərinin təşkilinə və informasiya şəbəkələrinə çıxışına dəstək göstərmək və qadın və qızların kənd təsərrüfatı sahəsində və kənd yerlərində yaşam imkanlarının təmin edilməsindəki rolunun təbliğini gücləndirmək üçün Dövlət Aqrar Ticarət Təşkilatı tərəfindən **Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ**) layihəsinə başlanılıb.

# **İLK DƏFƏ OLARAQ, TƏRƏVƏZÇİLİK ELMİ-TƏDQİQAT İNSTİTUTU KARTOF** TOXUMU İSTEHSALÇILARINI KEYFİYYƏTLİ ƏKİN MATERİALLARI İLƏ TƏMİN ETMƏK MƏQSƏDİLƏ, KARTOF MİNİ YUMRULARININ YETİŞDİRİLMƏSİNƏ BAŞLAYIB

## Kənd təsərrüfatının inkişafı

FAO kənd təsərrüfatında məhsuldarlığın artırılmasına və aqrar islahatların uğurlu icrasına töhfə verməyə yönələn bir sıra tədbirlər vasitəsilə Azərbaycan Hökumətinə dəstəyini davam etdirib.

- Bunun nümunələrindən biri kimi**, Torpaqların Konsolidasiyası üzrə Milli Proqramın** icrası təsərrüfat strukturlarının uzunmüddətli təkmilləşdirilməsinə töhfə verir, kənd təsərrüfatında torpaqların həddən artıq bölünməsinin, qeyri-rəsmi və köhnəlmiş torpaq reyestrinin və kənd təsərrüfatı infrastrukturunun səbəb olduğu struktur əsaslı problemlərin aradan qaldırılmasına yönəlir.
- Bundan əlavə, ölkənin öz **aqro-ərzaq ixracı potensialını** şaxələndirməsinə və artırmasına kömək etmək məqsədilə xurma və sarımsaq kimi məhsullar üçün bazar təhlilləri aparılıb və dayanıqlı balıqçılıq üzrə biznes-planlar hazırlanıb. FAO həmçinin kənd təsərrüfatı sektorundakı cari və gələcək çağırışlara daha yaxşı cavab verə bilmək üçün dayanıqlı kənd təsərrüfatı üzrə məsləhət xidmətlərinə dair strategiya və çərçivənin hazırlanmasında Hökumətə dəstək göstərib. Ölkə boyunca **60 dövlət və özəl informasiya-məsləhət xidmətləri təminatçısı** (41%-i qadın olmaqla) fermerlərə istehsallarını artırmaq üçün keyfiyyətli texniki məsləhətlər verməyə başlayıb. Bundan əlavə, **ilk dəfə olaraq, Tərəvəzçilik Elmi-Tədqiqat İnstitutu** kartof toxumu istehsalçılarını yaxşı keyfiyyətli əkin materialları ilə təmin etmək məqsədilə, kartof mini yumrularının yetişdirilməsinə başlayıb. Bu, yerli istehsal istiqamətində çox önəmli addımdır.
- BMTİP Qlobal Ekoloji Fondun dəstəyilə və Kənd Təsərrüfatı Nazirliyi ilə tərəfdaşlıq şəraitində icra etdiyi **Aqrobioloji müxtəliflik** proqramı çərçivəsində Şəki, Goranboy və Göyçay rayonlarında **yüksək texnoloji imkanlara əsaslanan əkinçiliyi** təqdim edib. Proqramın məqsədi yerli ərzaq istehsalının artırılması, məhsulların şaxələndirilməsi vasitəsilə ərzaq məhsullarının idxalından asılılığı azaltmaq və bununla da kiçik fermerlərin yaşam imkanlarını yaxşılaşdırmaqdır. BMTİP yerli məhsullardan istifadə edərək kənd təsərrüfatında məhsuldarlığı artırmaq və torpaqların deqradasiyasını azaltmaq məqsədilə, buğda, tərəvəz və yem bitkilərinin bir sıra **yerli növlərinin bərpası və qorunub saxlanması** istiqamətində Genetik Ehtiyatlar İnstitutu ilə əməkdaşlıq edir. Bundan əlavə, **yeni səyyar təlim və torpaq analizi laboratoriyası** yerlərdə fermerlərə xidmət göstərərək onları yerli şəraitdə tətbiq edilə biləcək ən uğurlu əkinçilik metodları haqqında məlumatlandırır. **Kiçik meteoroloji məntəqələr və SMS-bildiriş sistemi** fermerlərə hansı vaxtlarda hansı bitkilərin əkilməsi və nə zaman sudan istifadəyə zərurət olmaması barədə düşünülmüş qərarlar verməkdə kömək edir. Hazırda Şəkidə daha dayanıqlı suvarma və əkinçilik üsullarından istifadə edən fermer Kazım Məmmədovun uğur hekayəsi ilə burada tanış ola bilərsiniz.



Kənddə müəllimə olan Pərvanə Abdullayeva arıçılıq təsərrüfatı sayəsində öz maddi imkanlarını daha da genişləndirib. Ona bu işdə, BMTİP və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi tərəfindən Qusarda açılmış yeni qadın resurs mərkəzi kömək edib. Mərkəz ölkənin ucqar ərazilərində yaradılmış doqquz Qadın Resurs Mərkəzindən birdir.Bu mərkəzlər xüsusilə daha həssas iqtisadi və sosial qruplardan olan qadınların öz potensiallarından istifadə etməsi, cəmiyyətin iqtisadi və sosial-baxımdan fəal üzvlərinə çevrilməsi üçün məkan və imkanlar təmin edir. “Burada xüsusilə qızlar və qadınların öz maksimum potensiallarına çatması üçün çoxlu imkanlar yoxdur,” - deyə Pərvanə qeyd edir. “Buna görə də, mən çox gənc ikən öyrəndim ki, öz imkanlarımı artırmaq üçün ən yaxşı yol öyrənməkdir.” Pərvanənin hekayəsinin geri qalanı ilə burada tanış ola bilərsiniz.

2-Cİ STRATEJİ PRİORİTET SAHƏ:

# İNSTİTUSİONAL POTENSİALIN VƏ EFFEKTİV DÖVLƏT VƏ SOSİAL XİDMƏTLƏRİN GÜCLƏNDİRİLMƏSİ




UNİCEF-in dəstəyilə, 2019-cu ildə 3-4 yaşlı uşaqlar üçün icma əsaslı erkən təlim xidmətlərinə çıxış imkanı genişləndirilib - 32 rayonda 320-ə yaxın mərkəzdə 6000-dən çox uşaq (təqribən 47%-i qız, 53-%-i oğlan) biliklərə yiyələnir. Azyaşlı uşaqlar üçün keyfiyyətli tədris və erkən uşaqlıq dövrü inkişafı üzrə 320 məktəbəqədər təhsil müəllimi təlimdən keçib.

**Hazırda 7 rayonda 5000 nəfər ibtidai sinif və 318 universitet** müəllimi öz siniflərini əlilliyi olan uşaqlar üçün inklüziv etmək üçün zəruri bilik və bacarıqlara malikdir

## Məlumat və tədqiqatların təkmilləşdirilməsi

- UNECE və Hökumət **"Bir Pəncərə - Avtomatlaşdırılmış İnformasiya Sistemi"ndə** yerləşdirilən gömrük məlumatlarını **beynəlxalq standartlarla** uzlaşdırmaq üçün səylərini birləşdirib[6]. Ölkənin hər hansı ticarət blokuna qoşulmadığını nəzərə alaraq, məlumat mübadiləsi üçün uyğunlaşdırılmış standartlar vaxt və xərclərə qənaət etməyə imkan verir.
- BƏT **qeyri-rəsmi iqtisadiyyatdan rəsmi iqtisadiyyata keçidin dəstəklənməsi ilə bağlı diaqnostik hesabat** hazırlayıb. Hesabat Qeyri-rəsmi məşğulluq üzrə Fəaliyyət Planının icrasında istifadə ediləcək. Həmçinin, BƏT-in dəstəyilə, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası "Dayanıqlı müəssisələr üçün əlverişli mühit" hesabatını hazırlayıb.
- UNFPA doğulan uşaqların cinsə görə nisbətinin pozulduğu və bioloji normadan nəzərəçarpan dərəcədə yüksək olduğu Azərbaycanda **qız övladının dəyərini təbliğ etmək və oğlan uşaqlarının üstün**

6. BMT-nin Ticarətin Asanlaşdırılması və Elektron Biznes Mərkəzi (UN/CEFACT), Avropa İttifaqının Gömrük Məlumatları Modeli və digər beynəlxalq standartlar

**tutulması meyllərini aradan qaldırmaq** üçün qanunvericiliyin və sosial siyasətlərin qiymətləndirilməsinə dəstək göstərib. Bununla yanaşı, Azərbaycanda demoqrafik dividentin faydaları və demoqrafik dəyişikliklərin iqtisadiyyata təsirinin tədqiqi üçün **Milli Transfer Hesabları** hazırlanıb.

- Rezident Əlaqələndiricinin Ofisi, BMTİP, Siyasi və Sülh Quruculuğu Məsələləri Departamenti və UNFPA-nın dəstəyilə, BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin xəritələr və əhali üzrə statistik məlumatları özündə birləşdirən Humanitar Məlumatların Mübadiləsi Portalında Azərbaycan üzrə spesifik məlumat toplusu yerləşdirilib.
- 2019-cu ilin avqust ayından etibarən, **BMTİP-in Azərbaycandakı Akselerator Laboratoriyasında** əhali, Hökumət və özəl sektorla əməkdaşlıq üçün innovativ xidmətlər dəsti təqdim etmək məqsədilə, araşdırma, xəritələşdirmə və eksperimentlər üzrə mütəxəssislərdən ibarət yerli heyət işinə başlayıb. Laboratoriya **sensmeykinq, kollektiv intellekt, həll yollarının xəritələşdirilməsi və eksperimentlər** kimi yeni xidmətlər təqdim etməklə, inkişafa kollektiv yanaşmanı əsaslı şəkildə dəyişmək məqsədini daşıyır. Heyət artıq fəaliyyətə başlayaraq, icma səviyyəsində əlilliyi olan şəxslərin inklüziv şəkildə cəlb olunması kimi problemləri müəyyən edir. Bu məqsədlə onlar 30 texnologiya mütəxəssisini, milli innovasiya laboratoriyalarını və əlilliyi olan şəxsləri bir araya gətirən **ilk İnklüzivlik Hakatonunu** təşkil edib və əlilliyi olan şəxslərin rifahını əsaslı dərəcədə yaxşılaşdıra biləcək həll yolları tapmaq üçün 16 iştirakçı komanda ilə birgə çalışıb.

## İnklüziv təhsil

İnklüziv təhsil seçim deyil, BMT-nin «Uşaq hüquqları haqqında» və «Əlilliyi olan şəxslərin hüquqları haqqında" konvensiyalarında müəyyən edilmiş və artıq Azərbaycan Respublikası Prezidentinin Sərəncamında öz əksini tapmış bir hüquqdur və BMT-nin qurumları müəllimlər üçün təlimlər, kurrikulumların hazırlanması və ictimai maarifləndirmə kampaniyaları vasitəsilə bu gündəliyə fəal dəstək göstərir.

- Hazırda UNİCEF-in dəstəyilə, 7 rayonda 5000 nəfər ibtidai sinif müəllimi və 318 universitet müəllimi öz **siniflərini əlilliyi olan uşaqlar üçün inklüziv etmək** üçün zəruri bilik və bacarıqlara malikdir. Bundan əlavə, müəllimlər və məktəblərin təlimlərə və təlim resurslarına çıxış imkanını təmin etmək və onlara dəstək göstərmək üçün bu rayonlarda 9 Resurs Mərkəzi yaradılıb. Daha ətraflı buradan oxuyun.
- BMTİP-in dəstəyilə yaradılmış yeni **İncəsənət və Sənətkarlıq üzrə İnklüziv Peşə Təlimi Mərkəzində** artıq 6 sinif üzrə 111 həvəskar (əlilliyi olan 45 nəfər daxil olmaqla) qeydiyyata alınıb və onlar ənənəvi incəsənət vasitəsilə birlikdə öyrənir və həyat təcrübəsi əldə edirlər.
- Qaçqın və sığınacaq axtaran uşaqların (ümumilikdə 400 nəfərdən) 70%-dən çoxu artıq BMTQAK-ın dəstəyilə ibtidai və orta təhsilə çıxış imkanı əldə edib.

**Ölkədəki bütün qaçqınlar artıq ilkin səhiyyə xidməti müəssisələrinə çıxış imkanına malikdir**

## Səhiyyə xidmətlərinin əlçatanlığı

- ÜST-ün geniş təşviqat tədbirləri nəticəsində, milli səhiyyə qanunvericiliyində Azərbaycanın **ilkin səhiyyə xidmətini gücləndirən** dəyişikliklər layihəsini hazırlamaq üçün parlamentdə işçi qrupu yaradılıb. Avqust ayında yerli və beynəlxalq ekspertlərin iştirakı ilə keçirilən siyasi dialoq ölkədə universal əhatə dairəsinə malik olan **ilkin səhiyyə xidməti üçün gələcəyə baxışın** hazırlanmasına töhfə verib. Bu təşəbbüs Azərbaycan üçün ən yaxşı ilkin səhiyyə xidməti modelinin yaradılmasına yönələn İlkin Səhiyyə Xidməti üzrə Sınaq layihəsinin həyata keçirilməsinə

**İlkin səhiyyə xidməti ölkənin diqqət mərkəzində yer alır**




2019-cu il BMTQAK-ın təşəbbüsü ilə Yaponiyanın "Fuji Optical" şirkətinin Azərbaycanda həyata keçirdiyi humanitar yardım missiyalarının 15-ci ildönümünə təsadüf edir. 2005-ci ildən bəri hər il keçirilən illik missiyalar zamanı, optometriya mütəxəssisləri məcburi köçkünlər, qaçqınlar və digər həssas əhali qrupları üçün görmə müayinələri aparıb və bugünədək 31000-dən çox adama eynəklər və digər görmə və eşitmə cihazları hədiyyə edib.

# DƏMİR VƏ FOL TURŞUSU ƏLAVƏLƏRİNİN YENİ SIĞORTA XİDMƏTLƏRİ PAKETİNƏ DAXİL EDİLMƏSİ HAMİLƏ QADINLARIN SAĞLAMLIĞININ ƏSASLI DƏRƏCƏDƏ YAXŞILAŞMASINA TÖHFƏ VERƏCƏK

imkan verəcək.

- ÜST-ün dəstəyilə, ölkədə dərmanların keyfiyyətinə cavabdeh olan Analitik Ekspertiza Mərkəzinin iki yerli mütəxəssisi Etibarlı İsteh- salat Təcrübəsi (GMP)[7] üzrə təlim keçərək sertifikatlandırılıb.
- ÜST-ün missiyası ölkədə səhiyyə sistemini qiymətləndirmək və **icbari tibbi sığorta sisteminin** tətbiqinin uğurlu şəkildə genişləndirilməsi ilə bağlı tövsiyələr vermək üçün Azərbaycana səfər edib.
- UNİCEF-in texniki dəstəyilə, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi **dəmir və fol turşusu əlavələrini yeni sığorta xidmətləri zərfinə** daxil edib. Bu, hamilə qadınların sağlamlığının əsaslı dərəcədə yaxşılaşmasına töhfə verəcək.
- **30 rayonda 500-ə yaxın tibb mütəxəssisi** UNFPA-nın dəstəyilə, kritik vəziyyətlərin (doğuş zamanı ananın kritik vəziyyətdə olması) təhlilləri (perinatal təhlil), uşaqlıq boynu xərçənginin skrininqi və ailə planlaşdırması üzrə təlimdən keçib.
- BMTİP və Səhiyyə Nazirliyi arasında dərman preparatlarının satın alınması üzrə tərəfdaşlıq nəticəsində **14000-ə yaxın xəstə** (Hepa- tit C, dərmana həssas vərəm, İİV-lə yaşayan böyüklər və uşaqlar) keyfiyyətli səhiyyə xidmətləri ilə təmin edilib.
- BMTQAK-ın qaçqınların təcili tibbi vəziyyətlərdə ixtisaslaşmış milli tibb müəssisələrinə qəbulu üçün apardığı uğurlu təşviqat nəticəsində **bütün qaçqınlar artıq ilkin səhiyyə xidməti müəssisələrinə çıxış imkanına malikdir**.

## Hüquqi və sosial xidmətlərin əlçatanlığı

- UNİCEF-in dəstəyilə, kompleks cavab və göndəriş xidmətlərini gücləndirmək məqsədilə, 3 rayonda **uşaq müdafiəsi üzrə yerli əlaqələndirmə mexanizmləri** modelləşdirilib. Fərdi işlərin idarə edilməsi üzrə elektron sistem yaradılıb və sınaqdan keçirilib. Bu sistem dövlət tərəfindən maliyyələşdirilən və QHT-lər tərəfindən idarə olunan sosial xidmət mərkəzlərinin keyfiyyətini, səmərəliliyini və effektivliyini artırmağa kömək edir.
- UNİCEF-in dəstəyilə, **həssas qruplara daxil olan 1550-dən çox uşaq və onların ailələri peşəkar sosial xidmətlərlə təmin edilib**

7. https://www.who.int/biologicals/vaccines/good_manufacturing_practice/en/




Azərbaycan Milli Paralimpiya Komitəsi və UNİCEF Azərbaycanda Uşaq Paralimpiya Hərəkatını daha da inkişaf etdirmək və bununla da idman vasitəsilə əlilliyi olan uşaq və gənclərin sosial reabilitasiyasına, sağlam inkişafına və sosial inteqrasiyasına töhfə vermək məqsədi daşıyan Anlaşma Memorandumu imzalayıb. Hərəkat bundan sonra təkcə Azərbaycanın paytaxtını deyil, rayonlarını da əhatə edəcək. Təkcə 2019-cu ildə əlilliyi olan 185 qız və oğlan 5-ci Uşaq Paralimpiya Oyunlarında iştirak edə bilib. “Qızım bura gəlməyi çox sevir”, - deyə Dilarə Səfiquliyeva qeyd edir. Onun 13 yaşlı qızı 6 ildir Komitənin təşkilatçılığı ilə bokkia idman növündə iştirak edir. “Biz uşaqlarımızla fəxr edirik və istedadlarını göstərmək üçün yaradılan bu fürsəti yüksək qiymətləndiririk.”

və inkişaf gerilikləri və əlilliyi olan 280 uşaq, hüquq pozuntusu törətmiş 200 yeniyetmə, küçə uşaqları və zorakılıq və istismar qurbanı olmuş uşaqlar icma əsaslı sosial reabilitasiya xidmətləri ilə təmin edilib.

- **11 Ailələrə Dəstək Mərkəzi** hazırda bu mərkəzlərin dəstək göstərdiyi 500-dən çox uşağın inkişaf baxımından irəliləyişini qiymətləndirmək və izləmək üçün istifadə olunan uşaq inkişafı üzrə qiymətləndirmə alətini inteqrasiya edib.
- BMTQAK tərəfindən təşkil olunmuş uşaq hüquqları üzrə seminarda Hökumətə təqdim etmək üçün kimsəsiz və öz ailəsindən ayrı düşmüş uşaqların müdafiəsinin yaxşılaşdırılması yollarına dair tövsiyələr siyahısı hazırlanıb. BMTQAK və **Vəkillər Kollegiyası** arasında imzalanmış əməkdaşlıq müqaviləsi Kollegiyanın üzvlərinə aşağı xidmət haqqı müqabilində sığınacaq axtaranları və qaçqınları məhkəmələrdə təmsil etmək imkanı verəcək. BMTQAK həmçinin aztəminatlı məcburi köçkün ailələri üçün məşğulluq və sahibkarlıqla bağlı layihəsinin potensial benefisiarları siyahısına qaçqınların daxil edilməsi ilə bağlı **Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) ilə,** Qaç- qın Qadın və Gənclər Mərkəzində qaçqınlar üçün kompüter savadlılığı üzrə pulsuz təlimlərin keçirilməsi ilə bağlı **“Microsoft” şirkətinin Azərbaycandakı Nümayəndəliyi** ilə və qaçqın və sığınacaq axtaran ailələrdən olan tələbələr üçün bir neçə təcrübə yerlərinin ayrılmasına dair **“Azərsun” şirkəti** ilə müqavilələr bağlayıb.
- USAİD və Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə əməkdaşlıq şəraitində, BMqT radikallaşmanın ağır nəticələri və fərdlərin ekstremistlər tərəfindən cəlb olunmağa həssaslığını artıran zəifliklər barədə məlumatlılığı artırmaq üçün silsilə seminarlar təşkil edib. BMqT həmçinin Vəkillər Kollegiyası və ASAN Xidmətlə Azərbaycanın 4 rayonunda əhalinin həssas qrupları üçün **ödənişsiz hüquqi yardım mərkəzlərinin** yaradılmasına dair müqavilə bağlayıb.
- UNFPA və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin **yaşlıların rifahının yaxşılaşdırılmasına** və «fəal yaşlanma» konsepsiyasının təbliğinə yönələn layihəsindən Bakı, Mingəçevir və Lənkəranda yaşayan 400 nəfər yaşlı şəxs faydalanıb.



Ənənəvi su mənbəyi olan kəhrizlərin bərpası sayəsində  Ağcabədi rayonunun Hüsülü kəndində 4837 yerli və 141 məcburi köçkün təmiz su ilə təmin edilib (BMqT, KOİCA). Bundan əlavə, Bərdə və Yevlax rayonlarında 24 su quyusu və 16 sanitar qovşağın tikintisi nəticəsində 1200 uşaq üçün sanitar-gigiyenik şərait yaxşılaşdırılıb(BMTİP, Aİ).

3-CÜ STRATEJİ PRİORİTET SAHƏ:

# ƏTRAF MÜHİT SAHƏSİNDƏ İDARƏÇİLİYİN TƏKMİLLƏŞDİRİLMƏSİ VƏ TƏHLÜKƏ VƏ FƏLAKƏTLƏRƏ QARŞI DAYANIQLILIĞIN ARTIRILMASI

BMT qurumları ətraf mühit mənbələrinin yaxşı idarə edilməsini, zərərli iqtisadi fəaliyyətlərdən qorunmasını və dayanıqlılığını təmin etmək üçün tədbirlər həyata keçirmək, qanun və siyasətlər qəbul etmək istiqamətində həm sənaye, həm də Hökuməti təmsil edən tərəfdaşlarla işləməyə davam edib.

- BMTİP səmt qazlarının toplanması, tikinti və nəqliyyat sahələrində enerjidən səmərəli istifadəni artıran tədbirlər vasitəsilə **istixana qazlarının emissiyalarının azaldılmasında** Qlobal Ekoloji Fond (GEF) və Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (SOCAR) ilə əməkdaşlıq edib. Bu il Siyəzəndəki neft və qaz yataqlarında qaz kompressorlarının quraşdırılması nəticəsində əvvəllər hər il atmosferə buraxılan təqribən 7 milyon kub metr həcmində qaz bundan sonra toplanılacaq və 15 kənddə yaşayan və daha əvvəl evlərini qızdırmaq və yemək bişirmək üçün odundan istifadə edən təqribən 600 ailəyə paylanılacaq. Bu, quruda yerləşən neft yataqları tərəfindən **atmosferə buraxılan 4.6 milyon kub metr həcmində metan qazının 20 faiz azalması** ilə nəticələnəcək.
- BMTİP həmçinin Stokholm Ətraf Mühit İnstitutu ilə birlikdə **BMT-nin İqlim Dəyişmə işmələri üzrə Çərçivə Konvensiyası üçün Dördüncü Milli Məlumatın** hazırlanmasında Hökumətə köməklik göstərməyə davam edib. Bundan əlavə, **Civə üzrə Minamata İlkin Qiymətləndirməsi** də hazırlanıb və Konvensiyanın Katibliyinə göndərilib. **"Böyük məsafələrdə transsərhəd hava çirkləndirilməsi haqqında" Konvensiya** çərçivəsində, Konvensiyanın əsas protokollarının ratifikasiyası üçün UNECE və BMTİP-in apardığı qanunvericilik təhlilinə əsaslanan **Milli Fəaliyyət Planı** Hökumətə təqdim olunub. UNECE və ÜST-ün dəstəyilə, Azərbaycan 2019-cu ildə "**Su və sağlamlıq haqqında" Protokoldan irəli gələn əsas öhdəliklərini** yerinə yetirib. Su Ehtiyatlarının Kompleks İdarəetməsi üzrə milli siyasi dialoq çərçivəsində, **2030-cu ilədək Su Strategiyasının** layihəsi qəbul edilmək üçün Nazirlər Kabinetinə təqdim edilib. Bundan əlavə, UNECE-nin dəstəyilə və onun məsləhətləri əsasında qabaqcıl beynəlxalq təcrübələrə əsaslanan **Dayanıqlı Enerji üzrə Milli Fəaliyyət Planı** hazırlanıb. Həmçinin, Ekologiya və Təbii Sərvətlər Nazirliyi BMTİP-in dəstəyilə, **İqlim Dəyişmələri üzrə Milli Fəaliyyət Planını** hazırlayıb.
- FAO-nun dəstəyilə, "**Meşə İnformasiya Mərkəzi**" tərtib olunaraq işə salınıb və yerli meşəçilərin meşə idarəçiliyinin planlaşdırılması, milli meşə inventarı və şitilliyin planlaşdırılması üzrə bacarıqları artırılıb. Meşə inventarı məlumatları 90 min hektardan artıq sahəni əhatə edən iki regional meşəçilik idarəsi üçün **Çoxfunksiyalı Meşə İdarəçiliyi planlarının** hazırlanmasında istifadə edilir. FAO, həmçinin, **50 hektar meşə sahəsinin pilot qaydada bərpası və 50 hektar otlaq sahəsinin bərpası vasitəsilə** çoxfunksiyalı meşə idarəçiliyinin tətbiqini reallaşdırıb. Bununla da o, karbonun tutulmasına, meşə və ağac resurslarının bərpasına və yerli icmaların sosial rifahının yaxşılaşmasına töhfə verib.



FAO tərəfindən təqdim edilən çoxfunksiyalı meşə idarəçiliyi metodları karbonun tutulmasına, meşə və ağac resurslarının daha yaxşı idarə edilməsinə və yerli icmaların sosial rifahının yaxşılaşmasına gətirib çıxarır.

## QURUDA YERLƏŞƏN NEFT YATAQLARINDA SINAQDAN KEÇİRİLMİŞ ENERJİ SƏMƏRƏLİLİYİ TƏDBİRLƏRİ ATMOSFERƏ BURAXILAN METAN QAZININ **20% AZALMASI İLƏ NƏTİCƏLƏNİR**

**Azərbaycan "Su və sağlamlıq haqqında" Protokoldan irəli gələn əsas öhdəliklərini yerinə yetirib**

- BMTİP **Paris İqlim Sazişinin icrasını sürətləndirmək** və Avropa İttifaqının (Aİ) standartlarına və beynəlxalq standartlara uyğun olaraq iqlim siyasətini və qanunvericiliyini təkmilləşdirmək məqsədilə yeni təşəbbüsün icrasına başlayıb. O, özəl sektorun iştirakçıları üçün iqlim dəyişikliyinə strateji yanaşmalar, iqlim dəyişikliyinə uyğunlaşmaqla bağlı əsas risklər və əsas tələblər üzrə bacarıqların artırılmasına dair təlimlər keçirib.
- FAO çəyirtkələrin yaratdığı təhlükənin proqnozlaşdırılması, qarşısının alınması və məhdudlaşdırılması yolu ilə Qafqaz və Mərkəzi Asiyada yerli əhalinin ərzaq təhlükəsizliyi və yaşam şərtlərinə müsbət töhfə vermək məqsədilə, **çəyirtkələrlə mübarizə tədbirlərinin** həyata keçirilməsində Hökumətə dəstək göstərib. **Bitki mühafizəsi üzrə 100 mütəxəssis** (15%-i qadın) çəyirtkələrlə mübarizə üzrə baş təlimçi kimi hazırlıq keçib və artıq digər işçiləri erkən xəbərdarlıq, profilaktika və çəyirtkə böhranının idarə edilməsi üzrə hazırlaya bilir. FAO **pestisidlərin əhalinin sağlamlığına və ətraf mühitə qarşı yaratdığı risklərin** azaldılmasında Hökumətə dəstək göstərmək üçün beş nazirlik və Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə çoxtərəfli tərəfdaşlıq qurub.
- FAO **milli qida təhlükəsizliyinə nəzarət sisteminin gücləndirilməsi** üçün Qida Təhlükəsizliyi Agentliyinin bacarıqlarını artırıb. Bu, quruma qlobal və regional səviyyələrdə "Codex Alimentarius"[8] un fəaliyyətlərinə səmərəli şəkildə qoşulmaq imkanı verəcək.

## GƏNCLƏRİN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ

- UNİCEF-öndərliyində **Hökumət və BMT-nin müştərək Gənclər Evləri Təşəbbüsü** ilkin olaraq iki gənclər evini əhatə etməsi planlaşdırılsa da, uğuru onu Azərbaycanın altı rayonuna aparıb çıxardı. Bu təşəbbüsdə UNFPA, BMT-nin Könüllülər Proqramı və BMT-nin Gənclərdən ibarət Məşvərət Şurası da öz töhfələrini veriblər. Nəticədə, **12-24 yaşlı 3600-dən çox gənc** əsas həyat bacarıqları, reproduktiv sağlamlıq və gender bərabərliyi proqramlarından, hüquqi və psixoloji yardımdan faydalanıb. Layihə Gənclər və İdman Nazirliyi və Gənclər Fondu, habelə gənclər, yeniyetmələr və digər tərəfdaşlarla yaxın əməkdaşlıq şəraitində icra edilib. 2019-cu ildə üç yerli tərəfdaş QHT də ictimaiyyətlərlə əlaqələr/marketinq, peşə hazırlığı və sosial sahibkarlığın genişləndirilməsi kimi yeni xidmətlərin təmini məqsədilə təşəbbüsə qoşulub.
- **1200 nəfərdən çox gənc** (49%-i qadın) **Azərbaycan Gəncləri Təşviqat Proqramı** çərçivəsində yerli gənclərlə məsləhətləşmə təşəbbüslərində iştirak edib. UNİCEF-in dəstəyilə həyata keçirilən təşəbbüslər yerli

8. http://www.fao.org/fao-who-codexalimentarius/about-codex/en/




"İdeyadan Biznesə" layihəsi çərçivəsində həyata keçirlən startap turlarının qalibləri İnnovativ Yay Düşərgəsində startap ekosistemi və və öz ideyalarını biznesə çevirməyin yolları barədə müzakirə aparmaq üçün bir araya gəlib.BMT-nin İnkişaf Proqramı və Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyi, Azərbaycan Gənclər Fondu, "Mikrosoft" və "Azercell" şirkətləri ilə əməkdaşlıq şəraitində həyata keçirdiyi bu layihə ölkədə startap hərəkatının formalaşdırılmasını təşviq edir və gənclərin innovativ biznes ideyalarına dəstək göstərir.

gəncləri narahat edən vacib məsələlərin həllinə yönələn, gənclərin rəhbərlik etdiyi kiçik miqyaslı layihələrin hazırlanmasına kömək edib.

- **9000 nəfər gənci** əhatə edən **"Gənclər Təşkilatları Dayanıqlı İnkişaf Məqsədlərinə doğru"** adlı onlayn sorğu keçirilib. Sorğu gənclər arasında DİM-lər barədə məlumatlılığın vəziyyətini əks etdirib və müxtəlif maraqlı tərəflər üçün DİM-lərin icrasının bütün mərhələlərində gənclərin fəal iştirakı üçün atılmalı olan addımlarla bağlı tövsiyələr təqdim edib.
- BMTİP Milli BMT Modeli Konfransı, BMT Modeli Yay Məktəbi və müxtəlif universitetlərdə fəaliyyət göstərən, gəncləri BMT-nin fəaliyyəti barədə məlumatlandıran və onları tədqiqat, danışıqların aparılması, kreativ yazı və ictimai natiqlik bacarıqları ilə təchiz edən MUN klubları vasitəsilə, **BMT Modeli ənənəsinə** dəstək göstərməyə davam edib.
- Hökumətin oğlan uşaqlarının üstün tutulması və gender əsaslı cinsi seçimin aradan qaldırılmasına yönələn strateji fəaliyyətlərinə UNFPA dəstək olmağa davam edib. Bu istiqamətdə, BMT qurumu Azərbaycan Gənclər Fondu ilə birlikdə qız övladının dəyərinin təbliği istiqamətində gənclər üçün yay düşərgələri təşkil edib.
- BMTİP və Gənclər və İdman Nazirliyinin təşəbbüsü olan **DİM-lər üzrə Gənc Səfirlər** DİM-lərin təbliğində gənclərin səfərbər olunması və fəal iştirakı istiqamətində çoxyönümlü fəaliy-yətlər həyata keçirib. Onlar DİM-lərin icrasına cəlb olunan dövlət qurumlarının işinə könüllü əsaslarla dəstək göstərib, yerli, milli və beynəl- xalq səviyyədə həyata keçirilən tədbirlər barədə məlumatların yayılmasına kömək edib və milli hesabatların hazırlanmasına töhfə veriblər.
- Ölkədəki altı universitet (beşi paytaxtda və biri rayonda olmaqla) UNICEF-in dəstəyilə, **gənclərlə iş üzrə mütəxəssislərin hazırlanması üçün magistr proqramını** həyata keçirməyə başlayıb və nəticədə **Azərbaycan dünyada bu səviyyədə akademik proqramlar təqdim edən on ölkədən birinə çevrilib.**

## QADINLARIN SƏLAHİYYƏTLƏNDİRİLMƏSİ

- UNFPA **cinsi və reproduktiv sağlamlıq, gender bərabərliyi, məişət zorakılığı və gender əsaslı cinsi seçim barədə düşünülmüş siyasətlərin hazırlanması** məqsədilə əlaqələndirilmiş təşviqat tədbirləri həyata keçirib. İcra edilmiş təşəbbüslərə maarifləndirmə kampaniyaları, icmalarda və dini qurumlar üçün məlumatlandırma tədbirləri, tibb işçiləri, məktəb müəllimləri, nazirliklərin gender məsələləri üzrə əlaqələndirici şəxsləri üçün bacarıqların artırılması üzrə tədbirlər və KİV-lə əməkdaşlıq daxildir.

Bura basın




2011-ci ildə Qadın Resurs Mərkəzlərinin yaradılmağa başlamasından bəri, Biləsuvar, Neftçala, Salyan, Sabirabad, Masallı, Zaqatala, Qusar və Bakının Xəzər rayonlarında fəaliyyət göstərən 9 Qadın Resurs Mərkəzi 6 mindən yuxarı qadını mühasibat uçotu və maliyyə savadlılığı, informatika, maliyyə vəsaitlərinin cəlb olunması, qadınların iqtisadi hüquqlarından tutmuş, rezyumenin yazılması, təqdimat bacarıqları və şəbəkələşməyə qədər geniş spektrli texniki və kommunikativ bacarıqlarla bağlı ödənişsiz təlim kursları ilə təmin edib. Bu illər ərzində, 150-ə yaxın qadın qrant dəstəyi, biznesin inkişafı üzrə təlimlər və mentorluq dəstəyi vasitəsilə öz bizneslərini qurub. BMTİP tərəfindən Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə birlikdə həyata keçirilən layihə Avropa Birliyi, Amerika Birləşmiş Ştatları Beynəlxalq İnkişaf Agentliyi, Coca-Cola Fondu, və son dövrlərdə İsveçrə İnkişaf və Əməkdaşlıq Agentliyi və Avstriya İnkişaf Agentliyi kimi tərəfdaşlarla əməkdaşlıq vasitəsilə ölkədə genişlənməyə davam edir.

**Gender əsaslı zorakılıq Azərbaycan iqtisadiyyatına illik 1.3 milyard manata başa gəlir ki, bu da, ölkənin ümumi daxili məhsulunun 1.8 faizinə bərabərdir**

- UNFPA və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi **"Azərbaycanda gender əsaslı zorakılığın iqtisadi nəticələri"** adlı tədqiqat həyata keçirib. Bu tədqiqat göstərir ki, gender əsaslı zorakılıq Azərbaycan iqtisadiyyatına illik 1.3 milyard manata başa gəlir ki, bu da, ölkənin ümumi daxili məhsulunun 1.8 faizinə bərabərdir. Tədqiqatın nəticələri və tövsiyələri əsaslandırılmış siyasətlərin hazırlanması üçün istifadə ediləcək.
- UNFPA-nın dəstəyilə, **Gender əsaslı zorakılığa cavab tədbirləri üçün Əsas Xidmət Paketləri** yerli kontekstə uyğunlaşdırılıb və dövlət rəsmiləri icraçı kimi təlim keçib.
- BMTQAK cinsi və gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirlərinə cavabdeh olan dövlət qurumları üçün **Standart Əməliyyat Prosedurlarının** hazırlanmasına dəstək göstərib. UNFPA isə **gender bərabərliyi, gender əsaslı zorakılıq və gender əsaslı cinsi seçim üzrə milli fəaliyyət planları** və **Reproduktiv sağlamlıq üzrə Milli Strategiya** kimi önəmli siyasət sənədlərinin təsdiqi üçün Hökumətlə məsləhətləşmələri davam etdirib. Bu sənədlər təsdiq üçün Nazirlər Kabinetinə təqdim edilib.
- UNİCEF və AFFA-nın Qızların Səlahiyyətləndirilməsi Akademiyası **"Əsas Həyat Bacarıqları" proqramının** xüsusi versiyasının hazırlanması vasitəsilə **qızların hüquqlarını təşviq edib** və proqram 25-dən çox rayonda 300 qızı əhatə edib. İlkin pedaqoji təhsil və ixtisasartırma təlimi proqramlarında gender və əlilliyə yetirilən diqqəti gücləndirmək üçün Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının təhsil kurrikulumuna yenidən baxılıb və **qızların ümumi idman dərslərinə cəlb olunması üzrə 300-dən çox məşqçi təlimdən keçib**. UNFPA bacarıqların artırılması və maarifləndirmə sessiyaları vasitəsilə, əqli məhdudiyyətləri olan gənc qızlara cinsi və reproduktiv sağlamlıq və gender əsaslı zorakılıqla bağlı dəstək göstərmək üçün Xüsusi




Bu gün Azərbaycan dünyada cins nisbətinin ən çox pozulduğu ölkələrdən biridir. Cinsi seçim ölkə əhalisinin tərkibinin uzunmüddətli pozulmasına gətirib çıxara bilər. Zaman keçdikcə, bu nisbətin pozulması qızların, qadınların və yaşlı qadınların itirilməsi ilə nəticələnə bilər. Cins nisbətinin pozulması gender əsaslı zorakılıq, o cümlədən zorlama, məcburi cinsi əlaqə, cinsi istismar, insan alveri və uşaq nikahı kimi insan hüquqları pozuntularını kəskinləşdirə bilər. Bunu nəzərə alaraq, UNFPA Bakıda və doğulan uşaqların cinsə görə nisbətinin yüksək olduğu rayonlarda selektiv abortların mənfi nəticələri barədə məlumatlılığı artırmaq, eləcə də oğlan uşaqlarının üstün tutulması təcrübələrini aradan qaldırmaq məqsədilə, “İtirdiyimiz qızlar” adlı kampaniyaya başlayıb.

Olimpiya Komitəsi ilə əməkdaşlıq edib.

- BMTİP-in Avropa İttifaqı və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi ilə əməkdaşlığı nəticəsində qərarvermə proseslərində daha çox qadın liderlərin iştirakına dəstək üçün Azərbaycanda **Gender əsaslı Bələdiyyə Akademiyası** yaradılıb. Akademiya qadınların yerli idarəetmə, liderlik və seçki müşahidəsi kimi sahələrdə bilik və bacarıqlarını artırmaq üçün qeyri-rəsmi təhsil platformasıdır.

## İNSAN HÜQUQLARI

- 2019-cu ildə **yüksək rütbəli insan hüquqları ekspertləri**, o cümlədən BMT-nin Şərqi Avropa və Mərkəzi Asiya üzrə **Birgə İİV/QİÇS Proqramının Xüsusi Müşaviri** və **BMT-nin Ərzaq Hüququ üzrə Xüsusi Məruzəçisinin** Azərbaycana etdiyi səfərlər beynəlxalq insan hüquqları normaları və standartlarını təşviq etməyə və Azərbaycanın həssas əhali qruplarını qorumaq öhdəliklərini yerinə yetirməyə davam etməsini təmin etməyə təkan verib.
- BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığının həyata keçirdiyi bacarıqların artırılması tədbirləri vasitəsilə vətəndaş cəmiyyəti və hüquq ictimaiyyətinin 111 nümayəndəsi (51%-i qadın) insan hüquqlarının monitorinqi üsulları, o cümlədən məlumatların toplanması və təhlili, hüquqi təhlil, sənədləşdirmə və hesabatvermə sahəsində bilik və bacarıqlar əldə edib.
- Bundan əlavə, BMT-nin təşkilatları (BMT İHAK, BMqT, BMTQAK və BƏT) yerli qurumların (Ədliyyə Akademiyası, Dövlət Miqrasiya Xidməti, Azərbaycan Vəkillər Kollegiyası, Dövlət Əmək Müfəttişliyi Xidməti) ədliyyə sahəsində beynəlxalq standartlar və BMT-nin insan hüquqları mexanizmləri üzrə bacarıqlarını artırıb.
- UNİCEF uşaq hüquqları barədə ictimai məlumatlılığı artırmaq məqsədilə, ASAN Könüllüləri təşkilatı ilə yeni müqavilə bağlayıb.




Hər il dekabrın 10-da İnsan Hüquqları Günü qeyd olunur. BMT-nin Baş Assambleyası 1948-ci ilin bu günündə hər bir kəsin malik olduğu ayrılmaz insan hüquqlarını bəyan edən əlamətdar sənəd - İnsan Hüquqları haqqında Ümumi Bəyannaməni qəbul etdi. 500-dən artıq dildə mövcud olan bu sənəd dünyada ən çox dilə tərcümə olunmuş sənəddir. Hər il BMT-nin Azərbaycandakı Ofisi də bu günü ölkədə insan hüquqlarını təşviq etmək üçün xüsusi bir mövzu seçərək qeyd edir. Builki mövzu isə gənclərin konstruktiv dəyişiklik elçiləri kimi potensialını vurğulamaq, onların öz səslərini daha yaxşı eşitdirməsini təmin etmək və onları hüquqların təşviqinə və müdafiəsinə cəlb etmək üçün gəncləri insan hüquqları uğrunda fəal olmağa çağırır.

Azərbaycanın **BMT-nin İqtisadi, Sosial və Mədəni Hüquqlar üzrə Komitəsinə 4-cü Dövri Hesabatı** ilə bağlı baxışa hazırlıq kimi, 2019-cu ilin avqust ayında UNCT, Komitənin ilkin sessiyası üçün Məsələlərin Siyahısına öz töhfələri ilə bağlı müştərək məlumat təqdim edib.

Məlumatda **Konvensiyanın icra vəziyyəti** və Komitənin 2016-cı ildə hazırladığı Yekun Qeydlərdə təqdim olunan tövsiyələrin icra vəziyyəti ilə bağlı əsas məsələlər vurğulanıb.

UNFPA Hökumətə **"Qadınlara qarşı ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" Konvensiya üzrə VI Dövri Hesabatın** hazırlanması və yekunlaşdırılmasında dəstək göstərib, hesabat rəsmi olaraq Komitəyə təqdim olunub və 2020-ci ilin sonunda baxılması nəzərdə tutulub.

UNFPA **Universal Dövri İcmalın cinsi və reproduktiv sağlamlıq hüquqlarına dair tövsiyələrinin icra vəziyyətinə** dair qiymətləndirmənin monitorinq cədvəlinin yenilənməsi üçün BMT İHAK-la səylərini birləşdirib. Monitorinq cədvəli siyasətlərin hazırlanması üçün məlumatların təmin edilməsi və Hökumətə **Pekin Bəyannaməsi və Fəaliyyət Platforması (Pekin+25) üzrə Milli İcmal Hesabatın** hazırlanmasında dəstək üçün istifadə ediləcək. BMTİP Hökumətə həmçinin İsveçrənin Cenevrə şəhərində keçirilmiş Pekin Bəyannaməsi və Fəaliyyət Platforması (Pekin+25) üzrə Milli İcmal İclasında ölkənin kənd yerlərində qadınların sahibkarlığı sahəsində əsas nailiyyətlərini təqdim etməkdə dəstək göstərib.

BMT İHAK çoxsaylı təlim materialları və təhsil resurslarının hazırlanması, insan hüquqları ilə bağlı 20 sənədin Azərbaycan dilinə tərcüməsi və 4500-dən çox nüsxədə paylanması yolu ilə **insan hüquqları sahəsində önəmli nəşrlərin ictimaiyyət üçün əlçatanlığını** artırıb. Buraya BMT-nin İrqi ayrı-seçkiliyin aradan qaldırılması üzrə Komitəsinin, BMT-nin İşgəncələr əleyhinə Komitəsinin, İnsan Hüquqları Komitəsinin Ümumi Qeydləri və Tövsiyələri, onların Azərbaycana dair Yekun Qeydləri, eləcə də "BMT İHAK-ın vətəndaş cəmiyyəti üçün praktiki təlimatı: fondlar, qrantlar və təqaüdlər" və "BMT İHAK-ın hüquq müdafiəçiləri üçün arayışı: insan hüquqlarını müdafiə etmək hüququnun qorunması" daxildir.

BMT-nin 9 agentliyi **gender əsaslı zorakılığa qarşı "16 günlük fəallıq" kampaniyasında** səylərini birləşdirib. Kampaniyaya UNCT, Hökumət və tərəfdaş vətəndaş cəmiyyəti təşkilatları ilə yaxından əməkdaşlıq çərçivəsində UNFPA (Gender üzrə Tematik Qrup) rəhbərlik edib.



**Builki kampniya çərçivəsində** həmçinin BMT, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və Vəkillər Kollegiyası arasında Azərbaycanda gender əsaslı zorakılığın qarşısının alınması və cavab tədbirləri sahəsində **uzunmüddətli tərəfdaşlığın əsası qoyuldu.**

BMT-nin Rezident Əlaqələndiricisinin Ofisi və Vəkillər Kollegiyası arasında imzalanmış **Anlaşma Memorandumu** əsasında, Kollegiya məişət zorakılığından zərər çəkmiş şəxsləri pulsuz hüquqi xidmətlə təmin edəcək və UNFPA-nın rəhbərliyi ilə, UNCT-nin hökumətin gender əsaslı zorakılıq qurbanlarına pulsuz hüquqi dəstək göstərməsini nəzərdə tutan qanunvericilik dəyişikliklərinə dair apardığı təşviqat səylərinə qoşulacaq.





Kampaniya həm də **dini əsaslı təşkilatların cəlb olunması baxımından** da uğurlu olub: gender əsaslı zorakılığın qarşısının alınmasına dair mesajlar ölkədəki məscidlərdə Cümə xütbələrinə daxil edilib. Bir sıra **nəşrlər**, o cümlədən **İstanbul Konvensiyası** ilə bağlı "sual-cavab" kitabçaları hazırlanıb və paylanılıb. Gender zorakılığı qurbanlarına kompleks xidmətlərin göstərilməsi üçün "Təmiz Dünya" sığınacağı ilə əməkdaşlıq qurulub.







**İctimai müzakirələrə təkan vermək və məsələ üzrə məlumatlılığı artırmaq üçün təşviqedici və təsirli mesajlar yolu ilə tanınmış bloqqerlərlə iş aparılıb.**



Builki kampaniya çərçivəsində BMT-nin Rezident Əlaqələndiricisinin, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədrinin və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədrinin fərdi **video mesajları** da daxil olmaqla kampaniyanın çoxsaylı auditoriyaya çıxışını təmin etmək məqsədilə silsilə video materiallar hazırlanıb.








Beş rayonda (Quba, Mingəçevir, Qəbələ, Lənkəran, Gəncə) avtobus dayanacaqlarında, habelə Bakı şəhərində bannerlər (gender zorakılığı üzrə qaynar xətlərin məlumatları) vasitəsilə məlumatlandırma aparılıb.




# BÖLMƏ 3:
# ƏLAQƏLƏNDİRMƏ SAHƏSİNDƏ NƏTİCƏLƏR

## BMT-nin İnkişaf Sisteminin İslahatı

- Rezident Əlaqələndirici tərəfdaş hökumət qurumları, beynəlxalq inkişaf tərəfdaşları, jurnalistlər, özəl sektorun nümayəndələri, vətəndaş cəmiyyəti və elm ictimaiyyəti ilə islahatın əsas komponentləri, onun səmərəliliyi və inkişafa təsirləri baxımından tərəfdaş ölkələrə verəcəyi faydalar barədə yüksək səviyyəli görüşlər və brifinqlər keçirib. Hökumət **gücləndirilmiş Rezident Əlaqələndirici Sistemini**, milli ehtiyacları qarşılamaq və DİM-lərə nail olmaq üçün səylərin birləşdirilməsini nəzərdə tutan islahatı, habelə ölkə səviyyəsində yüksək hesabatlılığın müəyyən edilməsini müsbət qarşılayıb. Bu baxımdan, müxtəlif dövlət qurumlarının hesabat üçün təkrar müraciət etməsi zərurətini aradan qaldırmaq üçün UNCT-nin öz inkişaf fəaliyyətlərinə dair **birgə illik hesabat** hazırlamağa başlaması həm Hökumət, həm də inkişaf tərəfdaşları tərəfindən müsbət qarşılanıb. Təhlil, siyasət seçimləri və texniki təcrübə vasitəsilə ölkələrə dəstəyin göstərilməsini nəzərdə tutan islahat vədi də milli tərəfdaşlar tərəfindən müsbət qarşılanıb. İnkişaf tərəfdaşları həmçinin islahatın faydalarını təqdir edib və çoxsektorlu, çoxsahəli məsələlərə hərtərəfli, birgə və ardıcıl şəkildə yanaşan "vahid" UNCT ilə işləmək ide-yasını dəstəkləyib.
- İslahatın icrasına bu il başlanılıb və BMT-nin Ölkə üzrə İdarə Heyətində **qurumlararası**

**əməkdaşlığın** nəzərəçarpan dərəcədə genişləndiyi və yaxşılaşdığı müşahidə edilib. UNCT qeyri-rezident və daha kiçik ixtisaslaşmış agentliklərin onun işində daha çox iştirak etməsini təqdir edib. UNCT ilə birgə məqsəddən çıxış edərək Rezident Əlaqələndiricinin Ofisi 2030-cu il Gündəliyinə nailolma baxımından narahatlıq doğuran əsas məsələlər fonunda **gender əsaslı zorakılıq, qaçqınlar üçün əlavə müdafiə sistemi, habelə inkişaf məlumatlarına çıxış** kimi konkret məsələləri təşviq etməkdə fəallıq göstərib.

- Azərbaycandakı BMT sistemi islahat gündəliyinin genişləndirilməsindən daha əvvəl də komanda şəklində fəal işləsə də, islahat həm idarəetmə, həm də proqram xarakterli bir sıra məsələlər üzrə qurumlararası əməkdaşlığa yeni təkan verdi. Gücləndirilmiş Rezident Əlaqələndiricinin Ofisi imkanların məhdudluğu səbəbindən təxirə salınmış qurumlararası təşəbbüslərlə bağlı işi sürətləndirdi. Əməliyyatlar üzrə İdarəetmə Heyəti ilk **İşgüzar Əməliyyatlar Strategiyasının** icrası istiqamətində işi sürətləndirərək, **bank işi, satınalma və insan resursları** kimi bir sıra qurumlararası funksiyaları uyğunlaşdırdı və səmərəliliyini artırdı. İslahat həmçinin Hökumətlə vahid BMT evi üçün məkanın təmin edilməsi ilə bağlı dialoqu bərpa etmək imkanı verdi. Ölkə xaricində yerləşən bir sıra BMT təşkilatları (BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu, BMT-nin Fəlakət Risklərinin Azaldılması Ofisi, UNİDO, UN-Habitat) Rezident Əlaqələndiricinin yeni Çərçivə Sənədinin (UNSDCF) hazırlanmasına dəstək göstərməklə bağlı müraciətinə müsbət cavab verdi.

## UNAPF-ın icrası

- UNCT əlaqələndirilmiş yanaşma vasitəsilə, 2019-cu il ərzində UNAPF-ın və Standart Əməliyyat Prosedurlarının icrasında əhəmiyyətli dərəcədə irəliləyiş əldə edib. Monitorinq




və Qiymətləndirmə üzrə qurumlararası İşçi Qrupunun dəstəyilə **Üç Nəticə Qrupu müştərək iş planları** vasitəsilə 2018-ci ilin hədəflərinə nailolma barədə hesabat vermiş, **2019-2020-ci illər üçün yeni müştərək illik planları** hazırlamışdır. 2019-cu ilin fevral ayında **Müştərək İllik İcmal** həyata keçirilmiş, **2018-ci il üçün İllik İcra Hesabatı** hazırlanmış, dərc olunmuş, tərəfdaşlara və ictimaiyyətə təqdim olunmuşdur. **Birgə İstiqamətləndirici Komitə** üçüncü iclasını keçirərək planları təsdiq etmiş, illik icmalın və aralıq icmalın nəticələrini və tövsiyələrini nəzərdən keçirmişdir. **UNAPF üzrə yekun qiymətləndirməni** aparmaq üçün müstəqil məsləhətçi cəlb edilmiş və qiymətləndirmə dekabr ayında yekunlaşdırılmışdır.

- **Gender, insan hüquqları və DİM-lər üzrə tematik qruplar** proqramların və layihələrin hazırlanmasında və icrasında əsas prinsiplərin tətbiqinə yaxından nəzarət edib və müvafiq tematik sahələrdə irəliləyiş əldə etmək üçün bir sıra birgə təşəbbüsləri həyata keçirmək məqsədilə, səylərini birləşdirib.
- BMT-nin İslahat Gündəliyinə və BMT-nin Dayanıqlı İnkişaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinə dair yeni təlimatlara uyğun olaraq, **yeni çərçivə sənədinin** hazırlanması üçün yol xəritəsi tərtib edilib və **Ölkə üzrə Ümumi Təhlil** həyata keçirilib.



# HÖKUMƏT VƏ TƏRƏFDAŞLAR BMT İSLAHATINI MÜSBƏT QARŞILAYIR

**BMT-nin qadınlar və əlilliyi olan şəxslərlə bağlı ilk müştərək proqramı tərtib edilib**

## İnkişaf tərəfdaşlarının əlaqələndirilməsi

- Rezident Əlaqələndiricinin Ofisi inkişaf gündəliyində birgə səyləri və uzlaşmanı təmin etmək üçün inkişaf tərəfdaşları arasında əlaqələndirmənin aparılmasına dəstək göstərməyə davam edib. Sektorlar üzrə səciyyəvi siyasət məsələlərini müzakirə etmək üçün **beş tematik əlaqələndirmə qrupunun** iclaslarının ardınca **3 plenar iclas** keçirilib. UNİCEF və ÜST-ün həmsədrlik etdiyi **təhsil, səhiyyə, sosial müdafiə** məsələləri üzrə qrup inkişaf tərəfdaşları tərəfindən gənclərin səlahiyyətlərinin artırılması sahəsində həyata keçirilən bütün tədbirləri sistemləşdirərək, tərəfdaş Hökumət qurumlarını məlumatlandırmaq və cəlb etmək, fəaliyyətlərinin Hökumətin gənclərin inkişafı strategiyası ilə uzlaşdırılmasını təmin etmək üçün Prezident Administrasiyasına təqdim edib. FAO, Avropa İttifaqı və Kənd Təsərrüfatı Nazirliyinin həmsədrlik etdiyi **kənd təsərrüfatı qrupu** Hökumətin kənd təsərrüfatı siyasətinə dəstək göstərib və platformadan inklüziv tərəfdaşlıq münasibətləri qurmaq, kənd təsərrüfatı sektoru üzrə nəticələri yaxşılaşdırmaq üçün istifadə edib. BMTİP və Asiya İnkişaf Bankının rəhbərlik etdiyi **enerji və ətraf mühit qrupu** bu sektorlarda şəffaflığı və hesabatlılığı yaxşılaşdırmaq, əlaqələndirməni gücləndirmək üçün Energetika Nazirliyi və Ekologiya və Təbii Sərvətlər Nazirliyi ilə müntəzəm görüşlər keçirib.
- Rezident Əlaqələndiricinin Ofisi özəl sektoru ölkədə DİM-lərin icrasına töhfə verməyə cəlb etmək məqsədilə Qlobal Saziş Ofisi ilə **BMT-nin Qlobal Sazişinin 10 Prinsipinin təşviqi** ilə bağlı bir neçə məsləhətləşmə keçirib. Rezident Əlaqələndiricinin Ofisinin, UNİCEF-in, "Ernst&Young" şirkətinin və Paşa Holdinqin nümayəndələrindən ibarət strategiya qrupuna Azərbaycan üçün **Qlobal Saziş Strategiyasının** hazırlanması həvalə edilib. Strategiyanın Qlobal Sazişin təşviqi, yerli jurnalistlərin məsuliyyətli biznes təcrübələri ilə bağlı bacarıqlarının artırılması, regional Qlobal Saziş şəbəkələri ilə tərəfdaşlıq münasibətlərinin qurulması kimi bir neçə komponenti 2019-cu ildə icra edilib. **"Azərbaycanda məsuliyyətli biznes"** mövzusunda keçirilən konfransın iştirakçılarının əksəriyyəti BMT-nin Qlobal Sazişinin 10 Prinsipini, «Uşaq hüquqları və biznes prinsiplərini» (UNİCEF) və Qadınların Səlahiyyətlərinin Artırılması üzrə Prinsipləri (BMT-nin Gender Bərabərliyi və Qadınların Səlahiyyətlərinin Artırılması Qurumu) imzalamaqda maraqlı olduqlarını ifadə edib.

## Resursların birgə cəlb olunması

- Rezident Əlaqələndiricinin Ofisinin dəstəyilə, UNFPA və BMTİP Azərbaycan Hökumətini **"Əlilliyi olan qadınların və Dağlıq Qarabağ müharibəsi veteranlarının hüquqlarının və rifahının təmin edilməsi"** layihəsini birgə maliyyələşdirməyə cəlb edib. Birgə proqramın məqsədi Hökumətin qadınlara və Dağlıq Qarabağ müharibəsi veteranlarına xüsusi diqqət yetirməklə əlilliyi olan şəxslərin hüquqlarını təmin etmək, qorumaq və həyata keçirmək istiqamətində göstərdiyi səylərə töhfə verməkdir. Proqram Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, bir sıra digər dövlət qurumları və QHT-lərlə yaxından əməkdaşlıq şəraitində icra olunur.

## Birgə kommunikasiya

- **BMT-nin Kommunikasiya Qrupu** Azərbaycanda insanları 2030-cu il Gündəliyinin icrasında fəal iştiraka həvəsləndirmək üçün silsilə maarifləndirmə tədbirləri və təşviqat

1948-ci ildən bəri, **24 oktyabr BMT Günü** kimi qeyd olunur. Bu, 1945-ci ildə BMT Nizamnaməsinin qüvvəyə mindiyi gündür. İştirakçı dövlətlərin əksəriyyəti, o cümlədən Təhlükəsizlik Şurasının beş daimi üzvü tərəfindən bu təsis sənədinin təsdiq olunması ilə, 74 il öncə bu gün BMT öz mövcudluğunu rəsmiləşdirib. **BMT-nin Azərbaycandakı Ofisi** 2019-cu ildə BMT günü münasibətilə, **təşkilatın Azərbaycanda həyatları necə dəyişdiyinə dair insan hekayələrini** ön plana çəkən xüsusi tədbir təşkil edib.




**“Gender fəallığına gedən yolum”**




**“Azərbaycanda nəhayət sülhü hiss etdim”**




**“Həyat bacarıqlarının gənclərin səlahiyyətləndirilməsində rolu”**




**“ÜST-ün Əməkdaşlıq Mərkəzi cəzaçəkmə müəssisələrində yoluxucu xəstəliklərlə mübarizədə qabaqcıl təcrübə kimi”**




**“Həssas qruplara aid insanların cəmiyyətə inteqrasiyası yolu ilə bərabərsizliyin azaldılması”**




**“Biz meşələrin salınması yolu ilə səhralaşmaya YOX deyirik”**




**“Biznes imkanları ilə qadınların səlahiyyətləndirilməsi”**




**“Üçtərəfli komitələr qabaqcıl tərəfdaşlıq nümunəsi kimi”**

işləri həyata keçirib. Bu tədbirlərə Bakıda **Dünya Ətraf Mühit Günü** münasibətilə mindən artıq şəxsin iştirakı ilə çimərliyin təmizlənməsi tədbiri, **gender bərabərliyini** təbliğ etmək üçün BMT-nin rəsmiləri, diplomatik missiyaların nümayəndələri və Azərbaycanın milli futbol yığmasının qadın oyunçuları arasında futbol matçının keçirilməsi və digər tədbirlər daxildir.

- Azərbaycandakı BMT təşkilatları həmçinin **jurnalistlər** üçün bizneslər arasında dayanıqlılığın təşviqində (Rezident Əlaqələndiricinin Ofisi), zorakı ekstremizmin və radikallaşmanın qarşısının alınmasında (BMqT), ilkin səhiyyə xidmətinin işıqlandırılmasında (ÜST), jurnalistikada gender aspektlərinin nəzərə alınmasında (UNFPA), əhali arasında ətraf mühitin mühafizəsinin təbliğində və digər işlərdə jurnalistlərin roluna dair təlimlər təşkil edib.

## Böhrana və böhrandan sonrakı vəziyyətə hazırlıq

- 2018-ci ildə münaqişənin alovlanması ssenarisi üçün qurumlararası fövqəladə hallar planı hazırlandıqdan və erkən xəbərdarlıq sistemi yaradıldıqdan sonra, Rezident Əlaqələndiricinin Ofisinin nəzarəti altında, BMTİP-BMT-nin Siyasi və Sülh Quruculuğu Məsələləri Departamentinin qlobal proqramı çərçivəsində təyin olunan **Sülh və İnkişaf Məsələləri üzrə Müşavirin heyəti** BMT-nin Təhlükəsizlik və Müdafiə Departamentinin Azərbaycan nümayəndəliyinin dəstəyilə, **Dağlıq Qarabağ münaqişəsi ilə əlaqəli təhlükəsizlik (hərbi), siyasi və sosial-iqtisadi göstəricilərin monitorinqini aparıb və hesabat verib.** Bundan əlavə, BMTİP-in **qlobal Böhran Riski Paneli** üçün **Azərbaycanın ölkə profili** hazırlanıb. Bu panel böhranla əlaqəli risklərin daha səmərəli monitorinqi, müntəzəm qiymətləndirilməsi və öyrənilməsi üçün hərtərəfli məlumat və tendensiyaları ümumiləşdirir.
- Dağlıq Qarabağ münaqişəsi ilə bağlı gərginliyin artdığı hallarda, Rezident Əlaqələndiricinin Ofisi və Nyu-Yorkda yerləşən BMT-nin Siyasi və Sülh Quruculuğu Məsələləri Departamenti müvafiq milli, regional və beynəlxalq maraqlı tərəflərlə birbaşa siyasi dialoq, eləcə də ictimai mesajlar vasitəsilə, **Baş Katibin münaqişələrin qarşısının alınması gündəliyinə** dəstək verib.
- Rezident Əlaqələndiricinin Ofisi oktyabr ayında cari siyasi dinamikanı, davam etməkdə olan tədbirləri və 2020-ci il üçün gələcək subregional birgə proqramlaşdırmanı müzakirə etmək üçün Bakıda **Rezident Əlaqələndiricilərin subregional müşavirəsinə** ev sahibliyi edib. Nəticədə, Siyasi və Sülh Quruculuğu Məsələləri Departamentinin və Sülh və İnkişaf Müşavirlərinin heyəti **Cənubi Qafqazda sülh səylərinə BMT-nin mümkün dəstəyi** üçün təkliflər hazırlayıb. Ölkə səviyyəsində, Rezident Əlaqələndirici BMTİP, UNFPA və FAO-nun

dəstəyilə, "**xalqların sülhə hazırlanması**" konsepsiyası altında **vətəndaş cəmiyyətinin DİM-lərlə bağlı subregional dəyirmi masa müzakirələrini** təşkil etməyə davam edib və sülh quruculuğu proqramları üçün imkanlar və erkən xəbərdarlıq üzrə **sosial media monitorinqini** davam etdirib.

- BMTİP 2019-cu ildə ərazilərin **minalardan təmizlənməsi üzrə əlavə tədbirlər** (60 milyon kv.m.) həyata keçirmək və zərər çəkmiş dövlətlərə minaların təmizlənməsi ilə bağlı həllərin təklif edilməsində **Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyə (ANAMA)** dəstək göstərməyə davam edib. ANAMA-nın mina riski ilə bağlı maarifləndirmə proqramları 2019-cu ildə 52000-dən çox məktəblini əhatə edib. 2019-cu il ANAMA-nın uğurlu əməliyyatlarının 21-ci ilinə təsadüf edir. Bu müddət ərzində, BMTİP-in dəstəyilə, ANAMA-nın əməliyyatları **Azərbaycanın 539 milyon kvadrat metr ərazisinin minalardan tamamilə təmizlənməsinə** və insanların öz torpaqlarında həyatlarını yenidən qurmasına, iqtisadi fəaliyyətlərini davam etdirməsinə imkan verib. ANAMA **160500 nəfərdən artıq məcburi köçkünün yenidən öz ərazilərində məskunlaşması üçün təhlükəsiz şərait** yaradıb.
- BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisinin dəstəyilə və Beynəlxalq Qırmızı Xaç Federasiyası və Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlıq yolu ilə, UNCT **zəlzələ ssenarisi üçün** qurumlararası fövqəladə hal planı, o cümlədən **klaster əsaslı cavab tədbirləri hazırlayıb**.
- Rezident Əlaqələndiricinin Ofisi BMT-nin Humanitar Məsələlərin Əlaqələndirilməsi Ofisi ilə əməkdaşlıq yolu ilə UNCT və humanitar tərəfdaşlar üçün fövqəladə vəziyyətin ilk 10 günü ərzində **qurumlararası fövqəladə hala birgə cavab tədbirləri** və müxtəlif fövqəladə hallarda ictimai mesajların hazırlanması ilə bağlı silsilə bacarıqların artırılması tədbirləri təşkil edib.




Bakı bu il həmçinin, Afrika-Avropa-Yaxın Şərqdə Beynəlxalq Axtarış və Xilasetmə Məşvərət Qrupunun (INSARAG) "Zəlzələ hadisələrində cavabvermə" mövzusundakı regional təliminə ev sahibliyi edib. Tədbirdə iştirak edən BMT qurumları özlərinin fövqəladə hallara hazırlığını və Azərbaycan Hökuməti və digər beynəlxalq və yerli tərəfdaşlarla böhrana cavabın əlaqələndirilməsi vasitələrini sınaqdan keçirə bilib.

- Rezident Əlaqələndiricinin Ofisi Azərbaycan Qızıl Aypara Cəmiyyətinə **Fövqəladə Hallar Nazirliyinin Axtarış-Xilasetmə Dəstəsinin** 120 heyət üzvü üçün təşkil etdiyi humanitar əməliyyatların beynəlxalq prinsipləri barədə təlimə ekspert dəstəyi göstərib.
- ÜST Səhiyyə, Fövqəladə Hallar, Daxili İşlər, Kənd Təsərrüfatı və Müdafiə Nazirliklərinin heyətinin fövqəladə hallara cavab, risk kommunikasiyası və strateji risklərin qiymətləndirilməsi sahəsində bacarıqlarını artırıb. Təşkilat, **2019-cu ildə baş vermiş qızılca alovlanmasına cavab** və onun idarə edilməsi ilə bağlı **Fəaliyyət Nəticələrinə Baxış** keçirib və bu, qabaqcıl təcrübələri müəyyən etməyə və tətbiq etməyə kömək edib.
- UNFPA Səhiyyə Nazirliyi ilə birlikdə Azərbaycanın 3 rayonunda reproduktiv sağlamlıq və gender əsaslı zorakılıq sahələrində böhrana cavab çərçivəsində təxirəsalınmaz tibbi tədbirlərin keçirilməsi üzrə **səhiyyə sahəsində Minimum Kompleks Xidmətlər Paketinin** (MİSP) tətbiqinə dair silsilə simulyasiya məşğələləri keçirib.



FAO, Ətraf Mühit Fəaliyyəti Üçün Beynəlxalq Dialoq (IDEA) və Ekologiya və Təbii Sərvətlər Nazirliyinin yeni təşəbbüsü çərçivəsində 2 hektar ərazidə 312 qoz ağacı əkilərək, gəlir əldə etmək və rifahını yaxşılaşdırmaq məqsədilə aztəminatlı ailələrə təhvil verildi.

# BÖLMƏ 4:
# İRƏLİYƏ BAXIŞ

- 2016-cı ildən bəri, Hökumət iki Könüllü Milli Hesabatın təqdim olunması, İnteqrasiya, Sürətləndirmə və Siyasət Dəstəyi (MAPS) missiyasının təşkil edilməsi, Sürətli Kompleks Qiymətləndirmənin aparılması və DİM-lərin milliləşdirilməsi istiqamətində təşviqat tədbirlərinin keçirilməsi kimi çoxsaylı hazırlıq tədbirləri görüb. Nəticədə, Hökumət 88 hədəf və 119 göstəricini prioritetləşdirib. Qiymətləndirmə və planlaşdırma baxımından xeyli iş görülsə də, ölkənin irəliləyişi ilə bağlı effektiv monitorinq və hesabatverməni təmin etmək baxımından gələcəkdə siyasətləri, büdcələri, dövlət proqramlarını DİM-lərin hədəf və göstəriciləri ilə əlaqələndirmək üçün daha çox səy tələb olunur. Analoji olaraq, DİM-lərin reallaşdırılması üçün resurslarla bağlı boşluqları öyrənmək məqsədilə, BMT və Dünya Bankının Kompleks Milli Maliyyələşmə Çərçivəsindən (İNFF) istifadə etməklə, **DİM-lərin xərclərinin müəyyənləşdirilməsi** həyata keçirilməlidir. BMT, Fəaliyyət Onilliyinə cavab verən uzunmüddətli milli DİM strategiyası kimi çıxış edə biləcək

## BMT DİM-LƏR ÜZRƏ SƏMƏRƏLİ MONİTORİNQ VƏ HESABATVERMƏ ÜÇÜN **MƏLUMATLARIN KEYFİYYƏTİNİ VƏ ƏLÇATANLIĞINI YAXŞILAŞDIRMAQDA HÖKUMƏTƏ DƏSTƏYİNİ DAVAM ETDİRƏCƏK**

**DİM-lər üzrə 2030-cu ilədək gələcəyə baxış sənədinin hazırlanması** ilə bağlı Hökumətin öhdəliyinə dəstək göstərməyə hazırdır. Azərbaycanın yuxarı-orta gəlirli ölkə statusunu nəzərə alaraq, DİM-lərin maliyyələşdirilməsi ilə bağlı aşağıdakı məsələlər Hökumətin diqqətini tələb edir: 1) dayanıqlı inkişafa dəstək üçün resursların ayrılması; 2) inkişaf maliyyəsi mexanizmindən və müvafiq əməkdaşlıq platformalarından istifadə; 3) dayanıqlı inkişaf üçün özəl sektor mənbələrini cəlb etmə və istifadə etmə.

- Azərbaycan DİM-lər və onların hədəfləri ilə bağlı **məlumatların keyfiyyətini** yaxşılaşdırmaq üçün nəzərəçarpan səylər göstərsə də, bir çox digər ölkələrdə olduğu kimi, **məlumatların dezaqreqasiyası** baxımından önəmli boşluqlar qalmaqdadır. BMT, **DİM-lər üzrə səmərəli monitorinq və hesabatvermə** üçün məlumatların keyfiyyətinin və əlçatanlığının yaxşılaşdırılması üçün Hökumətə dəstəyini davam etdirəcək.
- BMT islahatı kompleks siyasət dəstəyinin inteqrativ olmasını təmin etmək üçün böyük imkan təqdim edir. Bu cür dəstək milli inkişaf məsələləri ilə bağlı sektor əsaslı və ya ayrı-ayrı qurumlar üzrə yanaşmanı önləməyə kömək edəcək. 2020-ci ildən etibarən, Azərbaycanın yuxarı-orta gəlirli ölkə statusunu nəzərə alaraq, BMT tədricən üzüaşağı proqramlaşdırmadan inteqrasiyalı şəkildə **üzüyuxarı siyasət dəstəyinə** keçid edəcək. UNCT, həmçinin, Hökumətə **vətəndaş cəmiyyətini gücləndirməkdə** dəstək göstərəcək ki, bu da öz növbəsində hökumətin siyasət və proqramların icrasında hesabatlılıq və şəffaflığını gücləndirəcək.
- BMT, DİM-lərin icrası istiqamətində milli siyasətləri dəstəkləmək üçün mövcud imkanları ön plana çəkməyə davam edəcək. Məsələn, iqlim dəyişmələri kontekstində, mühafizə olu- nan ərazilər şəbəkəsinin gücləndirilməsinə və kənd təsərrüfatı və meşəçilik sektorlarında iqlim texnologiyaları həllərinə xüsusi diqqət yetirməklə, **təbii ehtiyatların idarə edilməsini gücləndirmək** üçün potensial mövcuddur. BMT-nin texniki dəstək göstərə biləcəyi digər sahələrə **qanunvericilik və siyasət çərçivələri, iqtisadiyyatın “yaşıllaşdırılması”, çirklənmənin azaldılması, su və tullantıların idarə olunması və biomüxtəliflik** daxildir. Miqrasiya üçün Qlobal Sazişin (GCM) məqsədlərinin strateji və effektiv şəkildə icrası üçün **Azərbaycanda Miqrasiya üzrə BMT Şəbəkəsi** qurmaq üçün planlar hazırlanıb. Bu şəbəkəyə BMT, Hökumət və vətəndaş cəmiyyəti təşkilatları daxil olacaq.
- UNCT, DİM-lərə bütövlükdə nail olmaq üçün göstərilən milli səylərə əsaslanacaq **2021-2025-ci illər üzrə BMT-nin Dayanıqlı İnki-şaf üzrə Əməkdaşlığa dair Çərçivə Sənədinin (UNSDCF)** hazırlanması ilə bağlı işini davam etdirəcək.

## BÖLMƏ 5:
# TƏRƏFDAŞLAR VƏ MALİYYƏ İCMALI

### Maliyyə icmalı

| BMT Təşkilatları | Cəmi (ABŞ dolları) |
|---|---|
| Ərzaq və Kənd Təsərrüfatı Təşkilatı | 2,611,029 |
| Beynəlxalq Əmək Təşkilatı | 335,000 |
| Beynəlxalq Miqrasiya Təşkilatı | 1,035,391 |
| BMT-nin İnsan Hüquqları üzrə Ali Komissarlığı | 80,000 |
| BMT-nin Qaçqınlar üzrə Ali Komissarlığı | 2,337,000 |
| BMT-nin İnkişaf Proqramı | 9,930,629 |
| BMT-nin Avropa İqtisadi Komissiyası | 93,000 |
| BMT-nin Uşaq Fondu | 2,013,495 |
| BMT-nin Əhali Fondu | 667,610 |
| Ümumdünya Səhiyyə Təşkilatı | 92,725 |

### Maliyyə tərəfdaşları

- Azərbaycan Hökuməti
- Niderland Səfirliyi
- Birləşmiş Krallığın Səfirliyi
- Avropa İttifaqı
- Qlobal Ekoloji Fond
- Yaşıl İqlim Fondu
- KOICA – Koreya İnkişaf Agentliyi
- İsveçrə İnkişafvə Əməkdaşlıq Agentliyi
- ABŞ-ınBeynəlxalq İnkişaf Agentliyi

# İcraçı tərəfdaşlar

| Hökumət qurumları | | | | Qeyri-hökumət təşkilatları | | | Elm ictimaiyyəti | Özəl sektor |
|---|---|---|---|---|---|---|---|---|
| "ABAD" - Ailə Biznesinə Asan Dəstək publik hüquqi şəxs | Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentlik | Azərbaycan Respublikasının Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | Azərbaycan Respublikasının Nazirlər Kabineti | Avrasiya Tərəfdaşlıq Fondu | Ecolex Hüquq İctimai Birliyi | Qadınlar Bələdiyyələrin İnkişafı Uğrunda İctimai Birliyi | ADA Universiteti | "Ernst & Young" şirkətinin Azərbaycan nümayəndəliyi |
| Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası | Azərbaycan Respublikası Gənclər və İdman Nazirliyi | Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi | Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi | Azərbaycan Futbol Federasiyaları Assosiasiyası | Ecorenessaince İctimai Birliyi | Regional İnkişaf İctimai Birliyi | Azərbaycan Dövlət Pedaqoji Universiteti | Koka-Kola Fondu |
| Azərbaycan Respublikası Daxili İşlər Nazirliyi | Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsi | Azərbaycan Respublikasının Dövlət Turizm Agentliyi | Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyi | Azərbaycan Gənclərinin Nailiyyəti təşkilatı | ECO-TES təşkilatı | Ruzigar Ekoloji İctimai Birliyi | Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası | Paşabank |
| Azərbaycan Respublikası Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurası | Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi | Bakı Nəqliyyat Agentliyi | Azərbaycan Mikromaliyyə Assosiasiyası | EduHub platforması | Sağlamlığa Xidmət İctimai Birliyi | Azərbaycan Tibb Universiteti | "PricewaterhouseCoopers" in ("PwC") Azərbaycan nümayəndəliyi |
| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi | Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası | Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi | Dayanıqlı və Operativ Sosial Təminat Agentliyi | Azərbaycan Qızıl Aypara Cəmiyyəti | Əlil Təşkilatları İttifaqı | Sosial Tərəqqi İctimai Birliyi | Azərbaycan Turizm və Menecment Universiteti | Sosial İnnovasiya Laboratoriyası |
| Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidməti | Azərbaycan Respublikası Səhiyyə Nazirliyi | Azərbaycan Respublikasının Gənclər Fondu | Heydər Əliyev Fondu | Azərbaycan Respublikası Gənclər Təşkilatlarının Milli Şurası | Ətraf Mühit Fəaliyyəti üçün Beynəlxalq Dialoq (IDEA) | Təmiz Dünya İctimai Birliyi | Bakı 2 saylı Baza Tibb Kolleci | |
| Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi | Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili - Ombudsman | İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi | Azərbaycan Vəkillər Kollegiyası | Gənclər üçün Təhsil Mərkəzi | Uluçay Sosial-İqtisadi İnnovasiya Mərkəzi | Ədliyyə Akademiyası | |
| Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi | Azərbaycan Respublikası Təhsil Nazirliyi | Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi | Peşə Təhsili üzrə Dövlət Agentliyi | Azərbaycana Birgə Yardım Təşkilatı | Konstitusiya Araşdırmalar Fondu | Yerli İdarəetməyə Yardım İctimai Birliyi | Gəncə Dövlət Universiteti | |
| Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi | Azərbaycan Respublikasının Kənd Təsərrüfatı Nazirliyi | | Beynəlxalq Avrasiya Mətbuat Fondu | Narkomaniyaya Qarşı Mübarizə İctimai Birliyi | Y-PEER Azərbaycan Şəbəkəsi | Sumqayıt Dövlət Universiteti | |
| Azərbaycan Respublikası Energetika Nazirliyi | Azərbaycan Respublikası Xüsusi Olimpiya Komitəsi | Azərbaycan Respublikasının Milli Məclisi | | DAN Beynəlmiləlçi Gənclər İctimai Birliyi | Neftçalada Qadınların Sosial İnkişafına Dəstək İctimai Birliyi | | Təhsil İnstitutu | |

# XÜSUSİ NƏŞRLƏR




**Azərbaycanda erkən uşaqlıq dövrü inkişafı,** UNICEF, 2019 (İngilis və Azərbaycan dillərində)




**DİM Göstəriciləri üçün Statistik Potensial üzrə Ölkə Profili (Azərbaycan),** FAO 2019 (İngilis dilində)




**Yaşıl İqlim Fondunun layihələrində gender aspektlərinin aktuallaşdırılması,** BMTİP, BMT-Qadın, GEF, 2019 (İngilis və Azərbaycan dillərində)



**Azərbaycan: Pambıqçılıq sektorunun icmalı,** FAO, 2019 (İngilis dilində)




**Razılaşdırılmış transsərhəd tədbirlər və milli planların icrası vasitəsilə Kür çayı hövzəsi üzrə Su Ehtiyatlarının Kompleks İdarəetməsini inkişafı,** BMTİP, GEF, 2019 (İngilis, Azərbaycan və gürcü dillərində)

UNITED NATIONS
AZERBAIJAN

www.unazerbaijan.org

United Nations in Azerbaijan

@UNinAzerbaijan

© BMT-nin Azərbaycandakı Ofisi 2019